49_27 IYUl-QARA.qxd 12/25/2025 8:25 PM Page 1

UNİKAL

№49 (2279) 26 dekabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Gələn il gözlənilən məmur həbsləri



Səh.8

## AZAL təyyarəsinə döyüş başlığının elementləri dəyib - Hesabat

*AZAL-a məxsus Embraer 190 tipli 4K-AZ65 bort nömrəli təyyarənin zədələnməsi döyüş başlığının dağıdıcı elementləri nəticəsində baş verə bilər. Lakin həmin elementlərin mənşəyi hələlik müəyyən edilməyib. "Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan Nəqliyyat Nazirliyinin hadisəni araşdıran komissiyasının aralıq hesabatında qeyd olunub. Hesabatda bildirilir ki, aparılan kompleks ekspertizalar zamanı təyyarədə aşkar olunan metal hissəciklərdə partlayıcı maddə izlərinə rast gəlinməyib. Eyni zamanda, üç oksigen balonunda partlayış əlamətləri qeydə alınmayıb. Buna baxmayaraq, zədələnmənin döyüş başlığının dağıdıcı elementləri nəticəsində baş verməsi ehtimal olunur.*

Səh.2

## "Bu sərəncam şəhərlərimizin inkişafına yeni bir impuls verəcək"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin əhəmiyyətindən, növbəti il bu istiqamətdə qanunvericiliyə hansı dəyişikliklərin edilə biləcəyindən, paytaxtdakı sıxlığın aradan qaldırılması üçün atıla biləcək addımlardan və Bakıda köhnə...*

Səh.4

## Hotellərin ağlasığmaz Yeni il qiymətləri...




*Rayonlarda Yeni il bayramı günlərində hotel qiymətləri hətta 4300 manata kimi bahalaşıb. Bu yerli medianın apardığı araşdırmalar zamanı məlum olub. Qeyd etmək artıqdır ki, qış istirahətini ölkənin müxtəlif bölgələrində keçirməyi planlaşdıran vətəndaşlar üçün otel qiymətləri əsas maraq mövzularından birinə çevrilib.*

Səh.5

## Ədalət və Mərhəmət Yolu: "Konstitusiya və Suverenlik İli"ndə Amnistiya



*Bir neçə gün öncə Milli Məclisdə amnistiya elan edilməsi məsələsi müzakirəyə çıxarılıb. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən amnistiya təşəbbüsünün 20 min vətəndaşa şamil edilməsi gözlənilir. "Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə Milli Məclisə...*

Səh.11

49_27 IYUl-QARA.qxd 12/25/2025 8:27 PM Page 2



# "Müdaxilələr olmasaydı, indi xoşbəxt idik" - Röya Ayxan



***“Kasıb oğlana ərə getmişdim. Ola bilsin ki, üstündə adı var idi. Amma evlənəndə bizdən hər şeyi əsirgəmişdilər”.***

Bu sözləri Xalq artisti Röya Ayxan “Elgizlə izlə” verilişində deyib. Müğənni bir vaxtlar məşhur olan “Çuda peçka” mağazalar şəbəkəsinin sahibinin oğlu Anar Cəlilovla ailə qurmasından danışıb: “10 il onu sevib yaşamışam. Biz evlənən günü hər şey, kartlar bağlandı. Mən işləyirdim, ailəmizi də qəşəng qurmuşduq. Kaş ki, müdaxilələr olmasaydı, indi xoşbəxt olardıq. Aidiyyəti olmayan adamlar onların valideynlərinə elə sözlər aparırdılar ki, bizə qarşı çönürdülər. Valideynlər qarışmamalıdır”.

Qeyd edək ki, Röyanın bu nikahdan Hüseyn adlı oğlu var.

# Elza Seyidcahana sərt cavab: “Xalq da bilir ki, hansı yuvanın quşudur”



***”O, şeirləri ilə kimin ağzını tikir? Guya şair olub. Şeir yazmağın öz mənaları var”.***

“Unikal” xəbər verir ki, bunu ”Yeni Sabah”a açıqlamasında tanınmış alim, tibb elmləri namizədi Rəşid Mahmudov deyib. Əməkdar artist Elza Seyidcahanla aralarındakı gərginliyə münasibət bildirən R.Mahmudov söyləyib ki, xalq onları yaxşı tanıyır: ”Məni ona qarşı, onu da mənə qarşı qızışdırırlar. Yaxşı jurnalist olmaq lazımdır. İnsanları dalaşdırmaqla heç nə əldə etmək olmaz. O da nə deyir desin. Mən bilirəm, xalq da bilir ki, hansı yuvanın quşudur”.

Qeyd edək ki, Rəşid Mahmudov bir neçə gün öncə E.Seyidcahanla bağlı qalmaqallı açıqlama verib. Həkim verilişlərin birində bəstəkar-müğənnini dəli adlandırıb: ”Elza Seyidcahanda dəlilik əlamətləri, özünü böyütmək ideyaları var. Kimdə özünü böyütmək ideyası varsa, bu şizofreniyanın manyakal formasıdır”.

Elza Seyidcahan isə cavab olaraq bildirib: ”Dəli olum, amma qaranlıqdan baxanlara işıq olum. Axı Elza Seyidcahan öncədən hər şeyi zərgər dəqiqliyində şeirlərinin vasitəsi ilə deyib. Onlara büsbütün ”Tikim”, ”Sapım” şeirlərində cavab var. Çox diqqətlə, yaxş-yaxşı oxusunlar. Onlar özləri özlərini təhqir edirlər. Məni isə... ”Aşılanıram”, yəqin Allah məni daha yüksək, şərəfli rəflərə hazırlayır. ”Tikin məni qubbələrdə”. Mən qaranlıqda həqiqətəm. Ölün, utanın, yerə girin. Yazıqsınız. Öz yazıqlığınızı göstərirsiniz. Biz bir gündə 3 dəfə libasımızı başdan-ayağa dəyişirik. Siz bəlkə aylarla üzünüzü yumursunuz. Amma gəlib xalqa millət deyirsiniz. Ölün, utanın, yerə girin. Ölmüsünüz, xəbəriniz yoxdur”.



# "Kiminsə qızının müğənni olmasına pis baxırdılar" - Nüşabə Ələsgərli

***”Bizim ailəmizdə hamının gözəl səsi olub. Anamın da, böyük bacımın da oxumağı var idi. Amma heç kim müğənni olmadı. Çünki bu sənətə yetərincə sevgiləri yox idi”.***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Nüşabə Ələsgərli ”Xəzər axşamı” verilişində deyib. Müğənni övladlarından danışıb: ”O vaxt müğənniliyə pis baxırdılar. Pis baxırdılar ki, kiminsə qızı müğənni olacaq. İndikilər özləri istəyir. Əgər insanın sevgisi varsa, qarşısını kəsmək mümkün deyil. Mənim qarşımı kəsə bilmədilər. Övladlarımın da səsi var. Amma onların oxumaq həvəsi olmadı. Bu sənəti dəlicəsinə sevməlisən ki, arxasınca gedəsən”.

# “İstəmirəm ki, atam məhəlləyə utana-utana çıxsın”



***Müğənni Zeynəb Həsəni açıqlaması ilə diqqət çəkib.***

”Tarixin bir günü” verilişində qonaq olan Zeynəb geyimlərindən söz açıb.

”Tərbiyəmi, əxlaqımı özümə görə qoruyuram. İstəsəm, açıq-saçıq geyinə bilərəm, səhnədəyəm, cavan qızam. Nə istəsəm, edə bilərəm. Subay qızam. İstəmirəm, atam məhəlləyə utana-utana çıxsın. Həyatımı atam üçün yaşayıram. Qardaşlarım var, bir qardaşımın 45 yaşı var”, - deyə, Zeynəb bildirib. (Bizim.Media)

# "Ərimlə aramızda olan ikimizə aiddir" - Xanəndə



***Xanəndə Nişanə Baxışova şəxsi həyatı ilə bağlı maraqlı açıqlama verib.***

Sənətçi bildirib ki, hazırda həyat yoldaşından ayrı olsa da övladları daima onunla ünsiyyətdədir.

”Övladlarımın atası ilə münasibətləri çox yaxşıdır. Bütün ailələrdə söz-söhbət həmişə olur. Buna baxmayaraq demişəm ki, ata nə deyirsə, odur. Özü də bunu təsdiqləyə bilər. Gündə iki dəfə övladlarını yığıb maraqlanır. Balaca oğlum Abbas bir az dəcəldir, telefonu açmamışdı. Deyir, atama nə demisən ki, məni danlayır. Kimə deyim bəs? Atadan qorxmaq, çəkinmək lazımdır. Övladlarıma demişəm ki, atanızla aramızda olanlar ikimizə aiddir. Siz gözünüzü açıb necə görmüsünüzsə, elə də davam edin. O, elə bir yerdədir ki, istəsək belə, bir yerdə yaşaya bilmərik. İnşallah sağ-salamat övladlarının üstünə gəlsin. Mənə iş-güclə çətindir. Nə qədər yaxşı valideyn olsam da, atanın yerini vermir”.

49_27 IYUl-QARA.qxd 12/25/2025 8:27 PM Page 3



# Gələn il gözlənilən məmur həbsləri

## 2025-ci ildə çox sayda vəzifəli şəxsin həbsi 2026-cı il üçün nə vəd edir?

***2025-ci il bitir. Bu il ərzində baş vermiş yaddaqalan hadisələr sırasında bir sıra yüksək vəzifəli şəxsin həbsi də var. Xüsusilə 2019-cu ildən etibarən korrupsioner məmurların qandallanması intensiv bir prosesə çevrilib və indiyədək onlarca mühüm post sahibi dəmir barmaqlıqlar ardına atıldı. Onların sırasında sabiq nazirlərdən tutmuş sabiq icra başçılarınadək xeyli yüksək vəzifəli şəxs var.***

Bu mənada sona çatan 2025-ci il də istisna olmadı. Ekspertlərin fikrincə, proses yeni ildə də davam edəcək. Belə proqnozları qüvvətləndirən amillərə keçməzdən öncə gəlin arxada qalan ildə gerçəkləşən məmur həbslərini xatırlayaq.

### 2025-cildə həbs olunan məmurlar...

Martın 13-də Şəki şəhər İcra Hakimiyyətinin sabiq şöbə müdiri Tural Məmmədovun haqqında məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib. T. Məmmədov şəhid ailələrinə qarşı dələduzluqda şübhəli bilinərək polis tərəfindən saxlanılıb. Barəsində Cinayət Məcəlləsinin 178-ci (Dələduzluq) maddəsi ilə cinayət işi başlanıb. Aprelin 3-də isə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Dövlət texniki nəzarət şöbəsinin müdir müavini Rəşad Yolçiyev və Nazirliyin 1 saylı Dövlət Aqrar İnkişaf Mərkəzinin Texniki nəzarətin təşkili sektorunun müdiri Arif Həsənov barəsində cinayət işi başlanıb. İlkin istintaqla müəyyən olunub ki, Rəşad Yolçiyev və Arif Həsənov 2022-2025-ci illər ərzində kənd təsərrüfatı texnikasının dövlət qeydiyyatına alınması, dövlət nömrə nişanlarının verilməsi, texniki baxışdan keçirilməsi və digər bu kimi xidmətlər üçün onlara müraciət edən şəxslərdən müxtəlif məbləğlərdə rüşvət alıblar. Onların xidməti otaqlarında aparılan axtarışlar zamanı iş üçün vacib olan sübutlar götürülüb. Toplanmış materiallara əsasən hər iki vəzifəli şəxsə Cinayət Məcəlləsinin rüşvət alma ilə bağlı maddələri üzrə ittiham irəli sürülüb. Binəqədi Rayon Məhkəməsinin qərarı ilə onlar barəsində ev dustaqlığı və vəzifədən kənarlaşdırılma qətimkan tədbirləri seçilib.

Aprelin 8-də Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsinin əməkdaşı Hidayət Məmmədov və "Azərterminalkompleks" Birliyinin inspektoru Bayram Məmmədov həbs olunublar. Aparılan araşdırmalar onların əvvəlcədən razılaşaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib, dərman və digər mallarla dolu yük avtomobilinin gömrük nəzarətindən kənar keçirilməsi üçün Arzu Abdullayevdən rüşvət aldıqlarını göstərib. İlkin sübutlara əsasən, Hidayət Məmmədov qaçaqmalçılığa kömək, vəzifə səlahiyyətlərindən sui-istifadə və təkrar rüşvət alma, Bayram Məmmədov vəzifə səlahiyyətlərindən sui-istifadə və qrup halında rüşvət alma, Arzu Abdullayev və Haysuf Hacıyev isə külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi və qaçaqmalçılıq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər. Məhkəmə qərarına əsasən Hidayət Məmmədov, Bayram Məmmədov və Arzu Abdullayev barəsində həbs qətimkan tədbiri seçilib. Haysuf Hacıyev isə polisin nəzarəti altına verilib.

Sentyabrın 8-də SOCAR-AQŞ MMC-nin 54 milyon mənimsəmədə ittiham olunan sabiq baş direktoru Ramin İsayevin məhkəməsi başa çatıb. Məhkəmənin hökmü ilə R. İsayev 4 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında rəhbər və maddi məsul vəzifə tutmaq hüququndan məhrum edilib. O, 14 il azadlıqdan məhrumetmə cəzası alıb. Qeyd edək ki, Ramin İsayev Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib. Sentyabrın 20-də isə SOCAR-ın İnvestisiyalar və Marketinq üzrə vitse-prezidentinin sabiq müavini Adnan Əhmədzadə Azərbaycanda həbs olunub. Bakı şəhəri Səbail rayon məhkəməsində məhkəmə baxışı zamanı Adnan Əhmədzadə barəsin də 4 aylıq həbs qətimkan tədbiri seçilib. Məlumata görə, Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Adnan Əhmədzadə iqtisadi təhlükəsizliyə qarşı təxribat və xüsusilə külli miqdarda mənimsəmə əməllərində ittiham olunub.

Oktyabrın 14-də ilin ən səs-küylü hadisəsi baş verib: Bakı şəhəri Səbail rayon məhkəməsi Mehdiyev Ramiz Ənvər oğlu barədə cinayət işi üzrə qərar qəbul edib. Qərara əsasən məhkəmə xüsusilə ağır cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilmiş Ramiz Mehdiyev barədə verilmiş vəsatəti təmin edərək, 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib. R.Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham edilir.

Qeyd edək ki, R.Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri olub. 2019-2022-ci illər arasında isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edib.



Oktyabrın 31-də Balakən Rayon İcra Hakimiyyətinin sabiq başçısı İslam Rzayev barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. İslam Rzayev Cinayət Məcəlləsinin 179.3.2 (Külli miqdarda mənimsəmə) və 311.3.2 (təkrarən rüşvət alma) maddələri ilə ittiham olunur. Ertəsi gün isə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Qaradağ Rayon İcra Hakimiyyətində yoxlamalar aparıb. Qaradağ RİH başçısının müavini Nadir Muradov, Qaradağ RİH başçısının aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsini icra edən Qafar Abdullayev, RİH-nin digər əməkdaşları Rəşad Nadirli, İsa Şəmsəliyev və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin rəis müavini Zülfüqar Mansurov məsuliyyətə cəlb edilib. Toplanmış ilkin sübutlar əsasında Nadir Muradov, Qafar Abdullayev, Rəşad Nadirli, İsa Şəmsəliyev və Zülfüqar Mansurova müvafiq olaraq Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrarən və külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib.

Dekabrın 11-də Dövlət Gömrük Komitəsinin vəzifəli şəxsi və daha bir neçə nəfər qaçaqmalçılıq və digər ittihamlarla həbs olunub. Ümumilikdə 6 nəfər bir sıra cinayətlərdə, o cümlədən, qaçaqmalçılıq və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə ittiham olunur. Dövlət Gömrük Komitəsinin Dəniz Nəqliyyatı və Enerji Resursları Gömrük Baş İdarəsinin əməkdaşları Heydər Eyvazov və Tamerlan Axundzadə, Dövlət Gömrük Komitəsinin Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin Hövsan Məntəqəsinin rəisi Fərid Usubov, Bakı Hövsan Beynəlxalq Ticarət Limanının rəisi Rəşad Daşdəmirov və digər şəxslər Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Rəşad Daşdəmirov və Fərid Usubov barəsində də 2 ay 20 gün həbs qərarı verilib.

### Gələn il hansı vəzifəlilər həbs oluna bilər?

Ekspertlər deyirlər ki, xüsusən son 6 ildə çox sayda məmur həbsinin reallaşması bu prosesin davamlılığının göstəricisi, eyni zamanda gələn il də davam edəcəyinin anonsudur. Belə ki, ötən illərdəki həbslər bir sıra yüksək vəzifə sahiblərinin hələ də korrupsiyaya qarşı geniş miqyaslı və sərt xarakterli mübarizə tədbirlərindən nəticə çıxarmadıqlarını göstərir. Bu isə növbəti ildə də rüşvətxorluğa, yeyintiyə bulaşmış məmurların həbsini qaçılmaz edir.

Eyni zamanda "Ramiz Mehdiyev işi" çərçivəsində "boz kardinal"ın xəyanətkar şəbəkəsi ilə əlaqədə olmuş bəzi eks və indiki məmurları da cinayət məsuliyyəti gözləyə bilər.

O da unudulmamalıdır ki, Azərbaycanda çevik və səmərəli idarəetmə sisteminin formalaşdırılması istiqamətində çox ciddi addımlar atılmaqdadır. Bu mənada həm islahatların davamlılığının təmin olunması, həm də neqativ hallara qarşı təsirli mübarizə mexanizminin yaradılması mühüm əhəmiyyət daşıyır. Elə ona görə də 2026-cı il boyunca korrupsioner məmurların həbsi sürpriz sayılmayacaq.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də yeni icra başçısı təyin edilən şəxsləri qəbul etmiş və həmin görüşdə məmurlara növbəti dəfə xəbərdarlıq mesajları göndərmişdi: "Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq".

Dövlət başçısı bildirmişdi ki, vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi: "Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək".

"Sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək" - Prezident vurğulamışdı.

Bir sözlə, ehtimallar və ümumiləşdirmələr yeni ilin də məmurlar üçün qaynar keçəcəyini söyləməyə əsas verir.

***Sənan Mirzə***

49_27 IYUl-QARA.qxd 12/25/2025 8:28 PM Page 4



# Moskva təkcə bu çəkişmədə məğlub oldu:
## Təyyarə faciəsinin diplomatik nəticələri

***Qroznı şəhərində ötən ilin dekabr ayının 25-də Bakı-Qroznı reysini yerinə yetirən “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsinə həsr olunmuş lövhənin açılış mərasimi keçirilib.***

Memorial lövhə məhz Ramzan Kadırovun tapşırığı ilə 2017-ci ildə açılmış Heydər Əliyev adına parkda yerləşdirilib. Şübhəsiz ki, Kadırov bunu özbaşına etməyib. Bu əmr ona Kremldən, birbaşa Rusiya lideri Vladimir Putin tərəfindən verilib. Nəticədə, Şimal qonşumuz bu addımı ilə öz səhvini boynuna aldı. Buna rəsmi Bakının kəskin mövqeyi nəticəsində nail olundu. Əks halda ruslar AZAL-a məxsus “Embraer 190” təyyarəsini vurduqlarını öz xoşları ilə təsdiq etməyəcəkdi.



Hadisə baş verdiyi andan bir il ərzində yaranmış komissiyanın ilkin hesabatı hələ tam yekunlaşmayıb. Lakin hesabatın bu yaxınlarda açıqlanacağı gözlənilir. Qazaxıstan baş nazirinin müavini Kanat Bozumbayev deyib ki, AZAL-a məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması ilə bağlı təhqiqat yekunlaşmaq üzrədir. Onun sözlərinə görə, hesabatın 2025-ci ilin dekabr ayına qədər tamamlanması planlaşdırılır. Lakin görünür ki, hesabat hələ açıqlanmağa hazır deyil.

Bozumbayev qeyd edib ki, aviaqəzadan sonra iki araşdırma başlayıb: ”Biri Baş Prokurorluğun məşğul olduğu cinayət hissəsidir. Onlar oradakı rusiyalı həmkarları ilə əlaqə saxlayırlar. İkinci hissə isə Nəqliyyat Nazirliyinin istintaqı ilə bağlıdır, o, son mərhələdədir. Ona görə də biz hazırda lisenziya verənlərdən və ya texnologiya, aeronaviqasiya alətləri və s. sahiblərinin bu il və ya gələn ilin əvvəlində yekun rəyini gözləyirik”.

Baş nazirin müavini əlavə edib ki, Baş Prokurorluğun araşdırmasında da bəzi irəliləyişlər var: ”Siz qonşu dövlətlərin liderlərinin bəyanatlarını görmüsünüz. Ona görə də ümid edirik ki, orada da danışıqlar gələn il başa çatacaq”.

AZAL-ın vitse-prezidenti İlham Əmirov bir qədər əvvəl bildirib ki, ilkin hesabatda artıq havada olarkən təyyarəyə qeyri-qanuni fiziki müdaxilə edilib: ”Qara qutunun nəticələri də açıqlanandan sonra aydın oldu ki, təyyarənin həyati sistemləri üçü birdən eyni anda sıradan çıxıb. Bu isə təyyarəyə kənar qüvvənin təsiri ilə baş verib”.

Beləliklə, qara qutu təyyarənin ”qara qüvvələr” tərəfindən vurulduğunu üzə çıxaracaq. Fəqət, təyyarənin həyati sistemlərinin üçünün də birdən eyni anda sıradan çıxması əlavə suallar doğurur. Yəni, uzun müddətdir Ukrayna ilə müharibə aparan Rusiya pilotsuz uçuş aparatı ilə eniş etməyə hazırlaşan sərnişin təyyarəsini ayırd edə bilmədi? ”Xalça planı”nı da vaxtında elan etməmək öz yerində. Axı bu, müntəzəm reysdir, çarter reysi və yaxud da ilk dəfə həyata keçirilən reys deyil.

Çox güman ki, rəsmi Bakı təyyarəmizin qəsdli şəkildə və ya səhvən vurulduğu barədə sual verib və bunun da cavabını alıb.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə "EU Today" və bir qrup jurnalistə müsahibəsində bildirib ki, Azərbaycan Düşənbədə Rusiyadan 2024-cü ilin dekabrında AZAL aviaşirkətinin Qroznı üzərində vurulan təyyarəsi ilə bağlı suallarına cavab alıb.

H.Hacıyev qeyd edib ki, hadisədən dərhal sonra ”müəyyən anlaşılmazlıq” və ”emosiyalar” yaranıb, lakin Bakının narahatlıqları Düşənbədə növbəti görüşdə (Azərbaycan və Rusiya liderləri - red.) müzakirə edilib: ”Azərbaycan Rusiyadan AZAL aviaşirkətinin vurulan təyyarəsinə görə rəsmi olaraq üzr istənilməsini, hərtərəfli araşdırmanın aparılmasını, günahkarların məsuliyyətə cəlb edilməsini və kompensasiya ödənilməsini gözləyirdi. Hazırda biz anlaşılmazlıqlar səhifəsini çevirmişik və iki ölkə arasında normal qonşuluq münasibətlərini davam etdirəcəyik”.

Sözügedən görüşdə Rusiya Prezidenti Vladimir Putin qeyd etmişdi ki, Rusiya AZAL təyyarəsinin qəzaya uğramasının səbəblərinin araşdırılmasında hərtərəfli əməkdaşlığı təmin edir.

”Biz əlbəttə ki, razılaşdırıldığı kimi, istintaqla tam əməkdaşlığı təmin edirik. İstintaq yekunlaşmaq üzrədir”, - deyə Putin bildirib.

Rusiya prezidenti Vladimir Putin azərbaycanlı həmkarı İlham Əliyevlə görüşündə AZAL təyyarəsinin qəzaya uğramasına səbəb olan bir sıra halları açıqlayıb. O, deyib: ”Birincisi ondan ibarətdir ki, səmada məhz Ukraynaya məxsus pilotsuz uçuş aparatı olub. Biz faciə baş verən gecə Rusiya Federasiyasının sərhədini keçən üç pilotsuz təyyarəni idarə edirdik. İkinci səbəb isə Rusiyanın hava hücumundan müdafiə sisteminin özündə texniki nasazlıqlardır”. Onun sözlərinə görə, buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib - əgər bu baş versəydi, təyyarə elə yerindəcə məhv olardı.

Putin vurğulayıb ki, zərbə məhvedici döyüş elementləri ilə vurulmayıb, yəqin ki, raketlərin parçaları dəyib: ”Bununla əlaqədar kompensasiyalar ödəniləcək və günahkarlar cəzalandırılacaq”.

Onu da vurğulayım ki, Kreml bu kimi digər hadisələrdə səhvini birbaşa etiraf etməyib. Bu, Moskvanın məğlub olduğu yeganə çəkişmə ola bilər.

Azərbaycan Prezidenti İlham Əliyev AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı vəziyyəti şəxsən nəzarətdə saxladığına görə rusiyalı həmkarı Vladimir Putinə təşəkkür etmişdi.

”Bu vəziyyəti şəxsən nəzarətdə saxladığınıza görə Sizə təşəkkür etmək istərdim. Siz istintaqın gedişinə şəxsən nəzarət edirsiniz və bizim şübhəmiz yox idi ki, o, hər şeyi obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə Sizin məhz bu məsələyə aydınlıq gətirməyi lazımlı hesab etdiyinizə görə bir daha minnətdarlığımı bildirmək istərdim”, - deyə Prezident bildirib.

Xatırladaq ki, 2024-cü il dekabrın 25-də Bakıdan Qroznıya uçan təyyarə Aktaudan bir neçə kilometr aralıda qəzaya uğrayıb. Təyyarədə Azərbaycan, Rusiya, Qırğızıstan və Qazaxıstandan olan 62 sərnişin və beş ekipaj üzvü olub. 38 nəfər hadisədə həlak olub. İki ekipaj heyəti də daxil olmaqla 29 nəfər sağ qalıb.

***Ağarza Elçinoğlu***



# AAYDA sədri iclas keçirdi - Qarşıda duran vəzifələr müzakirə edildi

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 2025-ci il ərzindəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.***

”Unikal” xəbər verir ki, agentliyin akt zalında baş tutan iclası giriş nitqi ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov açıb.

Saleh Məmmədov Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə Azərbaycanın keçdiyi tərəqqi yolundan bəhs edib, ümummilli liderin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkənin müasir infrastruktur təminatına malik dövlətə çevrilməsi istiqamətində yol infrastrukturunun yenilənməsinə xüsusi önəm verildiyini vurğulayıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yol infrastrukturu sahəsində mühüm irəliləyişlər əldə edilib. Dövlət başçısının hakimiyyəti dövründə yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB ölkələri arasında 1-ci, dünyanın 141 ölkəsi arasında isə 24-cü yerdə qərarlaşıb.

Bildirilib ki, 2025-ci il ərzində 110,8 km respublika əhəmiyyətli, 153,1 km yerli əhəmiyyətli, 93,8 km Bakı şəhər yolları, 66 km Gəncə şəhər yolları və 17 km Şəki şəhər yolları olmaqla, ümumilikdə 440,7 km uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilmiş, yenidən qurulmuş və təmir olunmuşdur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işğaldan azad olunmuş ərazilərdə müxtəlif proqramlar çərçivəsində ümumi uzunluğu 3720,5 km təşkil edən 64 adda avtomobil yolunun tikintisi və 1 hava limanının inşası üzrə layihələr icra edilir.

Agentlik tərəfindən 2020-ci ildən indiyədək ümumi uzunluğu 1 338,4 km olan 17 avtomobil yolunun tikintisi tam, 1 layihənin icrası isə qismən başa çatdırılıb.

Hazırda avtomobil yolları üzərində ümumi uzunluğu 70,9 km olan 47 tunelin, ümumi uzunluğu 9 581,6 pm olan 447 körpünün və 3 871 pm uzunluğunda 16 viadukun tikintisi aparılır.

Ümumi uzunluğu 66,9 km olan 37 tuneldə qazma işləri tamamlanmış, 13,6 km uzunluğunda 7 tunel isə artıq istifadəyə verilmişdir.

Bununla yanaşı, ümumi uzunluğu 8 839,1 pm olan 392 körpünün və 1 965 pm uzunluğunda 9 viadukun tikintisi başa çatdırılıb.

Saleh Məmmədov Agentliyin fəaliyyəti barədə məlumat verərək bildirib ki, 2015-2025-ci illər ərzində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ümumilikdə 10 826,9 km uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilmiş, yenidən qurulmuş və təmir olunmuşdur.

Ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhərində 129 yeni körpü, 40 yol ötürücüsü, 8 avtomobil tuneli, 52 yeraltı və yerüstü piyada keçidi tikilmiş, həmçinin 53 körpüdə təmir işləri aparılmışdır.

Kollegiya iclasında ölkə başçısının verdiyi tapşırıqların icrası istiqamətində görülən tədbirlər, cari ildə işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihələr, əldə olunan nailiyyətlər, mövcud nöqsan və çatışmazlıqlar, eləcə də onların aradan qaldırılması üçün görülən işlər müzakirə olunub. Eyni zamanda ölkədə aparılan islahatlara və yeni çağırışlara uyğun olaraq hazırlanmış konsepsiya əsasında növbəti ildə idarəetmənin təkmilləşdirilməsi istiqamətində görüləcək tədbirlər diqqətə çatdırılıb.

Sonda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2015-2025-ci illər ərzində həyata keçirilmiş layihələrə dair hesabat filmi nümayiş etdirilib.

49_27 IYUI-QARA.qxd 12/25/2025 9:25 PM Page 5



# İlham Əliyev bir qrup idmançını təltif etdi



***Azərbaycan Respublikası bir qrup idmançıları və idman mütəxəssisləri təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Sərəncam imzalayıb.

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayev Yaqub Bəkir oğlu
Ağarəhimov Cahangir Ağababa oğlu
Aslanova Elmira Aydın qızı
Bayramov Cahangir Tofiq oğlu
Əliyev Coşqun Ceyhun oğlu
Hüseynov Fikrət Akif oğlu
Məhərrəmov Azər Asif oğlu
Məmmədov Eduard Tofiq oğlu
Musayeva Vəfa Təbriz qızı
Rəcəbov Nurəddin Rəcəb oğlu.

2. Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Gözəlbəyli Zöhrab Katib oğlu
İmaməliyev Ələkbər Əbdülbağı oğlu
Qədimova İlahə Akif qızı
Mirəliyev Mövlud Mustafa oğlu.

3. Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əliyev Qərib Tələt oğlu
Həsənov Tərlan Əliheydər oğlu
Xudiyev Asim Xəlil oğlu.

# Daxili qoşunların komandanını Prezident vəzifəyə təyin edəcək

***Daxili qoşunların komandanını və ali hərbi rütbələr nəzərdə tutulan vəzifələr üzrə zabitləri Prezident vəzifəyə təyin və vəzifədən azad edəcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanunun tətbiqi barədə Fərmanında qeyd edilib.

Fərmana əsasən, onların həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılması da Prezidentin səlahiyyətinə aid edilir.

Həmçinin, ölkə başçısı daxili qoşunların hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsini, daxili qoşunların hərbi şurasının əsasnaməsinin təsdiq edilməsini də həyata keçirəcək.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

## Baş nazir təyyarə qəzasında həlak olanların məzarlarını ziyarət edib

***"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasının birinci ildönümündə hadisənin səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının sədri, Baş nazir Əli Əsədov İkinci Fəxri Xiyabana gələrək həyatlarını itirən Milli Qəhrəmanlar Hökumə Əliyeva, İqor Kşnyakin və Aleksandr Kalyaninovun məzarlarını ziyarət edib.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb.

Ə.Əsədov rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Samir Rzayev qəzada həlak olan ekipaj üzvlərinin məzarlarına gül dəstələri qoyublar.

# AZAL təyyarəsinə döyüş başlığının elementləri dəyib - Hesabat

***AZAL-a məxsus Embraer 190 tipli 4K-AZ65 bort nömrəli təyyarənin zədələnməsi döyüş başlığının dağıdıcı elementləri nəticəsində baş verə bilər. Lakin həmin elementlərin mənşəyi hələlik müəyyən edilməyib.***



"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan Nəqliyyat Nazirliyinin hadisəni araşdıran komissiyasının aralıq hesabatında qeyd olunub.

Hesabatda bildirilir ki, aparılan kompleks ekspertizalar zamanı təyyarədə aşkar olunan metal hissəciklərdə partlayıcı maddə izlərinə rast gəlinməyib. Eyni zamanda, üç oksigen balonunda partlayış əlamətləri qeydə alınmayıb. Buna baxmayaraq, zədələnmənin döyüş başlığının dağıdıcı elementləri nəticəsində baş verməsi ehtimal olunur. Araşdırma çərçivəsində 2 nömrəli hidravlik sistem borusunda da zədələnmələr aşkarlanıb. Ekspertiza nəticələrinə görə, bu zədələr metalın sərt obyektlərlə təması nəticəsində yaranıb və polad əsaslı xarici obyektlər tərəfindən törədilmiş ola bilər.

Bundan əlavə, təyyarənin Mərkəzi Texniki Baxım Kompüterinin (CMC) məlumat daşıyıcısı termiki təsirə məruz qaldığından məlumatların oxunması mümkün olmayıb. Məlumatların bərpası məqsədilə ABŞ-ın "Delkin Devices Inc" şirkəti ilə danışıqlar aparılır.

GPS sistemlərinə aid blokların araşdırılması isə tamamlanıb və hazırda nəticələrin təhlili davam etdirilir.

Qeyd olunur ki, Araşdırma Komissiyası bütün nəticələri obyektiv və faktlara əsaslanaraq təqdim edəcək. Yekun hesabat Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyinin rəsmi saytında dərc olunacaq.

# 2026-2030-cu illər üçün Dövlət Proqramı təsdiqləndi

***Azərbaycanda rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncam sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və bu kimi digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi, yeni çağırışlar və artan tələblər fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatının ödənilməsi üçün statistik məlumat istehsalının dayanıqlılığını və milli statistika sisteminin inkişafını təmin etmək məqsədilə imzalanıb.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməli, Dövlət Statistika Komitəsi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirməli, tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verməlidir. Maliyyə Nazirliyi Dövlət Proqramında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq işlər görməlidir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Dövlət Statistika Komitəsinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirməlidir.

# Paşinyan İlham Əliyevə dəfələrlə təşəkkür etməyinin səbəbini açıqlayıb

***Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevə dəfələrlə təşəkkür etməyinin səbəbini açıqlayıb.***

O, bu barədə hökumət iclasından sonra jurnalistlərə bildirib. Ba. Nazir öz reaksiyasını tamamilə məntiqli və adekvat cavab hesab edib: "Mən gördüm ki, bizim baş verənləri qəbul etməyi həddən artıq mürəkkəbləşdirmək meylimiz var. Məsələn, niyə bu mikrofon mavidir, o birisi isə qırmızı, niyə sarı deyil, qaradır, və artıq bunun əsasında geosiyasi nəticələr çıxır".

Paşinyanın sözlərinə görə, Ermənistanla birbaşa əlaqəli hadisə baş verəndə, ölkə buna münasibətini bildirməli və bu münasibət müsbətdirsə, onu açıq şəkildə ifadə etmək lazımdır. O, əvvəlcə Qazaxıstan, sonra Rusiya üçün buğda idxalına qoyulan məhdudiyyətlərin aradan qaldırılması, həmçinin Ermənistandan dəmir yolu daşımalarına məhdudiyyətlərin olmaması kimi son vaxtlarda atılan bir sıra konkret addımları xatırladıb.

"Bundan əlavə, Azərbaycan neft məhsulları satmağa hazır olduğunu ifadə edib. Neft məhsulları daşıyan qatar (ilk - red.) artıq gəlib və məhsul bazara çıxıb", - Baş nazir qeyd edib.



Paşinyan vurğulayıb ki, belə hadisələrə açıq şəkildə münasibət bildirməyini düzgün sayır və Ermənistanın mövqeyinin dəqiq ifadə olunması üçün bunu müxtəlif platformalarda bilərəkdən paylaşır.

# Prezident Milli Qəhrəmanın oğlunu təltif etdi

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev Azərbaycanın bir qrup idmançı və idman mütəxəssisini təltif edib.***

"Unikal"ın məlumatına görə, təltif olunanlar arasında Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmovun (Fred Asif) oğlu Azər Məhərrəmov da var. Qol güləşi idman üzrə dünya çempionu olan A.Məhərrəmov "Tərəqqi" medalı ilə təltif edilib.

Qeyd edək ki, Fred Asif 1991-ci ildə Birinci Qarabağ müharibəsində cəbhənin Ağdam istiqamətində döyüşüb. Döyüşlərdə şücaətinə görə Azərbaycan Milli Qəhrəmanı adı alıb.

# Dekabrın bütün sosial ödənişləri verildi

***Dekabr ayının müavinət, təqaüd və ünvanlı sosial yardımları ödənilib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb. Prezident İlham Əliyevin Sərəncamına əsasən, ünvanlı sosial yardım alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə birdəfəlik maddi yardım (200 manat) verilməsi nəzərdə tutulub ki, bu maddi yardım da dekabrın 30-dək ödəniləcək. Qeyd edək ki, bundan əvvəl, dekabrın 10-da Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu, Naxçıvan Muxtar Respublikası üzrə dekabr ayının pensiyaları, 19-da digər bölgələrdə yaşayan pensiyaçıların və güzəştli şərtlərlə pensiya təyin edilmiş şəxslərin dekabr ayı üzrə pensiyaları ödənilib.

# Köç karvanları Qırmızı Bazar, Məmmədbəyli, Şuşakənd və Xanyurduya çatıb



***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində Xocalı rayonunun Şuşakənd və Xanyurdu kəndlərinə, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə və Zəngilan rayonunun Məmmədbəyli kəndinə növbəti köç karvanı yola salınıb.***

"Unikal" xəbər verir ki, köç edənlər respublikanın müxtəlif bölgələrində, əsasən, yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən Xocalı rayonunun Şuşakənd və Xanyurdu kəndinə yola salınan köç karvanları kəndlərə çatıb, evlərin açarları sakinlərə təqdim edilib. Açarların təqdimat mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə və Zəngilan rayonunun Məmmədbəyli kəndinə növbəti köç prosesi baş tutub, evlərin açarları sakinlərə təhvil verilib. Açarların təhvil verilmə mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında, eyni zamanda Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə və Zəngilan rayonunun Məmmədbəyli kəndinə növbəti köç prosesi baş tutub.

Bu mərhələdə Xocalı rayonunun Şuşakənd kəndinə 20 ailə (83 nəfər), Xanyurdu kəndinə 12 ailə (50 nəfər), Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 37 ailə (169 nəfər), Zəngilan rayonunun Məmmədbəyli kəndinə isə 29 ailə (147) nəfər köçürülüb.

Doğma yurdlarına qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə təşəkkür edib, bu yolda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyiblər.

# Qarabağ və Şərqi Zəngəzurda biznesə dövlət dəstəyi sahibkarlığın inkişafına əlverişli şərait yaradır

***İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında özəl sektor üçün dövlət tərəfindən tətbiq edilən dəstək və güzəştlər paketi bölgədə əlverişli işgüzar mühit formalaşdırıb.***



İqtisadiyyat Nazirliyindən "Unikal"a bildirilib ki, regionda fəaliyyət göstərən rezidentlərə 1 yanvar 2033-cü ilədək mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən tam azadolma tətbiq olunur. Həmçinin müvafiq iqtisadi fəaliyyət sahələri üzrə avadanlıq və xammalın idxalına görə ƏDV və gömrük rüsumları ödənilmir, habelə dividendlərdən əldə edilən gəlirlərə görə vergi tutulmur.

İstehsal sahəsində fəaliyyət göstərən rezidentlər üçün kommunal xidmətlər üzrə də mühüm dəstək mövcuddur. 1 yanvar 2033-cü ilədək hər ay istehlak edilən kommunal xidmətlərə görə ödənişlərin 20 faizi dövlət tərəfindən geri qaytarılır.

Fiziki şəxslərin mehmanxana və hotel xidmətlərinə görə ödədiyi ƏDV-nin geri qaytarılması da stimullaşdırıcı mexanizmlərdən biridir: nağdsız ödənişlərdə 30 faiz, nağd ödənişlərdə isə 5 faiz geri qaytarılır.

Bölgədəki sənaye parklarının rezidentləri isə qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən tam azaddır. Eyni zamanda, idxal olunan texnika və avadanlıqlar üçün ƏDV və gömrük rüsumu tətbiq edilmir ki, bu da müəssisələrin ilkin investisiya xərclərini əhəmiyyətli dərəcədə azaldır və layihələrin daha operativ şəkildə reallaşmasına şərait yaradır.

Qeyd edilənlərlə yanaşı, işğaldan azad edilmiş ərazilərdə sosial sığorta, kommunal xidmətlər və əmək münasibətləri ilə bağlı müvafiq güzəştlər tətbiq olunur.

Dövlətin təqdim etdiyi dəstək və güzəştlər Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının reallaşdırılmasına, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə güclü stimul verir. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş ərazilərdə rezident statusu alan sahibkarlıq subyektlərinin sayı ildən-ilə artır, yeni istehsal və xidmət müəssisələri fəaliyyətə başlayır, istehsal olunmuş məhsullar artıq ixrac edilir. Bu da bölgədə real sektorun formalaşmasına və dayanıqlı iqtisadi təməllərin qurulmasına şərait yaradır.

Bu stimullar məşğulluğun artırılmasına da mühüm töhfə verir. Yeni müəssisələrin fəaliyyətə başlaması yerli əhalinin əmək bazarına reinteqrasiyasını, ixtisaslı kadrların bölgəyə cəlb olunmasını sürətləndirir.

Ümumilikdə dövlətin təqdim etdiyi bu geniş dəstək və güzəşt mexanizmləri Qarabağ və Şərqi Zəngəzurun müasir, innovativ və rəqabətqabiliyyətli iqtisadi məkan kimi formalaşmasına xidmət edir.

# Saleh Səmədovun həbs müddəti uzadıldı



***İmişli Rayon Ağsaqqallar Şurasının keçmiş sədri Saleh Səmədovun həbs müddəti uzadılıb.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, bu barədə Səbail Rayon Məhkəməsində istintaq orqanı tərəfindən verilən vəsatətə baxılıb.

Məhkəmənin qərarı ilə Saleh Səmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

Saleh Səmədov AR Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə ittiham olunur.

Qeyd edək ki, Saleh Səmədov Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilib. O, həmçinin mayın 13-də İmişli Rayon Ağsaqqallar Şurasının sədri vəzifəsindən azad edilib.

# Həbsdə ölən sabiq icra başçısının oğluna yeni vəzifə verildi

***Xəbər verdiyimiz kimi, bir sıra hakimlərin vəzifələri dəyişdirilib.***

"Unikal"ın məlumatına görə, vəzifəsi dəyişdirilən hakimlərdən biri Ramin Nizaməddin oğlu Quliyevdir.

O, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilib.

Qeyd edək ki, Ramin Quliyev 2021-ci ildə həbsdə vəfat edən Ağstafa Rayon İcra Hakimiyyətinin sabiq başçısı Nizaməddin Quliyevin oğludur.

N.Quliyev 2009-2019-cu illərdə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb. Daha sonra Ağstafa Rayonu İcra Hakimiyyətinin başçısı təyin edilib.

N.Quliyev 2019-cu ilin dekabr ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilən əməliyyat nəticəsində həbs olunub. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 9 il müddətinə azadlıqdan məhrum edilmişdi.

***Anar Kəlbiyev***

# Problemli kreditlər niyə artır? - Deputat açıqladı

***Bu il dekabrın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 557,6 milyon manat təşkil edib. Bu, noyabrın 1-i ilə müqayisədə 2,35 % çoxdur. Ölkədə problemli kreditlərin məbləği ilin əvvəlinə nisbətən 24,2 %, son 1 ildə isə 12,3 % artıb.***

Noyabrın sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 1,8 % təşkil edib. Bu nisbət oktyabrın sonuna 1,7 %, ötən il dekabrın sonuna 1,5 %, ötən il noyabrın sonuna isə 1,7 % olub.

Bəs görəsən problemli kreditlərin artmasının səbəbi nədir?

Deputat Vüqar Bayramov "Unikal"a açıqlamasında bildirib ki, son aylar problemli kreditlərin həcmində artımlar müşahidə olunur. Onun sözlərinə görə, problemli kreditlərin həcminin artmasının əsas səbəblərindən biri bankların bir sıra hallarda müraciət edən şəxsin ödəmə qabiliyyətini yoxlamadan kreditlər verməsidir: "Bu, həmin kreditlərin müəyyən müddət sonra geri qaytarılmasında çətinlik yaradır. Vacib məqamlardan biri istehlak kreditləri üzrə faizlərin yüksək olmasıdır. Son dövrlər kredit faizlərində artımlar müşahidə edirik. Bu da həmin kreditlərin geri qaytarılmasında çətinliklər yaradır. Hazırda istehlak kredit portfeli 8 milyard manatdan çoxdur. Bu isə ondan xəbər verir ki, hazırda 3 milyon vətəndaşımızın istehlak krediti var. İstehlak krediti portfelinin həcminin artması və xüsusilə faizlərin yüksək olması fonunda bəzi hallarda həmin kreditlərin geri qaytarılmasında çətinliklər yaranır. Bir müddət bəzi banklar tərəfindən kredit kartları üzrə limitlərin açılması və həmin limitlərin kart sahibinin ödəmə qabiliyyətinə uyğun olmamasını müşahidə etdik. Təbii ki, Mərkəzi Bank tərəfindən limitlərin tənzimlənməsi ilə bağlı qərar qəbul edildi.

Amma uzun müddət belə kredit kartları üzrə limitlərin açılması və izafi borclanma nəticə etibarı ilə problemli kreditlərin həcminin artmasına gətirib çıxarıb. Ona görə Mərkəzi Bank tərəfindən problemli kreditlərin həcminin tənzimlənməsi, ümumiyyətlə, kredit inzibatçılığının yüksəlməsi ilə bağlı tədbirlərin daha da sistemləşdirilməsi və kreditlərin ayrılması ilə bağlı qaydalara yenidən baxılması məqsədəuyğundur".

***Anar Kəlbiyev***

49_27 IYUI-QARA.qxd 12/25/2025 9:25 PM Page 7



# Karen Avanesyanın məhkəməsi oldu



***Xankəndidə terrorçuluq və digər xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən Karen Avanesyanın barəsində cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Gəncə Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesi hakim Natiq Əliyev aparıb. K. Avanesyan tərcüməçi və vəkillə təmin olunub.

Xatırladaq ki, bundan əvvəl ki prosesdə dövlət ittihamçısı çıxış edərək Karen Avanesyanın 18 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, cari il sentyabrın 14-də Azərbaycan Respublikasının Xankəndi şəhəri ərazisində odlu silah və döyüş sursatlarından atəş açılmaqla partlayışla nəticələnən terrorçuluq edilməsi, habelə terrorçuluqla əlaqədar ikidən çox polis əməkdaşının qəsdən öldürülməsinə cəhd edilməsi və digər faktkar üzrə Baş Prokurorluğun İstintaq idarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşıb. İstintaq tədbirlərilə, Xankəndi şəhərinin erməniəsilli sakini, 1967-ci il təvəllüdlü Karen Avanesyanın bir sıra xüsusilə ağır cinayətlər törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Belə ki, K.Avanesyan ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq məqsədilə, partlayışların törədilməsi, insanların öldürülməsi və digər ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunan terrorçuluq əməli, habelə terrorçuluqla əlaqədar qəsdən adam öldürmə cinayətlərini törətmək məqsədilə Xankəndi şəhərinin ərazisində 2023-cü ilin sentyabr ayına kimi fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmələrdən qalmış odlu silah - "AKMS" markalı avtomat silahı, onun komplekt hissələrini, habelə çox sayda əl qumbaralarını əldə edib həmin şəhərin ərazisində gizlədərək uzun müddət saxlayıb, cinayətkar niyyətini həyata keçirmək üçün sentyabrın 14-də saat 07 radələrində yaşadığı sosial sığınacağı hər hansı bir səbəb bildirmədən tərk edib gizlətdiyi silah-sursatları götürərək atəşə hazır vəziyyətə gətirib, saat 09 radələrində yaşayış olmayan başqa bir evə girib mövqe tutmaqla polis əməkdaşlarının yaxınlaşmasını gözləyib, onun olduğu yeri müəyyənləşdirməyə çalışan polis əməkdaşlarının sayının çoxluğunu müşahidə etdikdən sonra qabaqcadan planlaşdırdığı terrorçuluq və çoxsaylı hakimiyyət nümayəndələrini öldürmək üçün şəraitin yetişdiyi qənaətinə gələrək gizləndiyi yerdən avtomat silahdan ona yaxınlaşan polis əməkdaşlarına nizamsız çoxsaylı atəşlər açıb, ardınca isə əl qumbaralarını polis əməkdaşlarının olduqları yerə ataraq partladıb.

Nəticədə 3 nəfər polis əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri almış, hadisə yerindən təxliyyə edilərək zəruri tibbi yardımlar gösətirildiyindən həyatlarını xilas etmək mümkün olub.

Bundan başqa, qanunvericiliyin tələblərinə və edilən dəfələrlə xəbərdarlıqlara baxmayaraq, Karen Avanesyan hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmaqdan boyun qaçırdığı üçün polis əməkdaşları tərəfindən odlu silah tətbiq olunmaqla saxlanılıb, ardınca isə zəruri tibbi yardımlar göstərilməklə xəstəxanada müalicə edilib.

Cinayət işi üzrə toplanmış sübutlar əsasında Karen Avanesyan Cinayət Məcəlləsinin 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11 (xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar ümumi təhlükəli üsulla iki və daha çox şəxsi terrorçuluqla əlaqədar qəsdən öldürməyə cəhd qəsdən adam öldürməyə cəhd), (qəsdən adam öldürməyə cəhd), 214.2.3 (odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə terrorçuluq törədildikdə), 228.1 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını əldə etmə, saxlama və daşıma) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub.

Karen Avanesyan barəsində ibtidai istintaq orqanının vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Xankəndi şəhər məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***Tural Əhmədov***

# "Bu sərəncam şəhərlərimizin inkişafına yeni bir impuls verəcək"

## Azər Badamov: "2026-cı ilin ölkəmizin şəhərsalma və memarlıq sahəsinin yeni bir inkişafına təkan verəcək dövrü olacağını hesab edirəm"

***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin əhəmiyyətindən, növbəti il bu istiqamətdə qanunvericiliyə hansı dəyişikliklərin edilə biləcəyindən, paytaxtdakı sıxlığın aradan qaldırılması üçün atıla biləcək addımlardan və Bakıda köhnə binaların sökülməsi prosesinin necə davam edəcəyindən danışıb.***

***-Azər müəllim, Prezident İlham Əliyevin Sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bunun əhəmiyyətini necə qiymətləndirirsiz və növbəti il şəhərsalma ilə bağlı hansı yeniliklərin şahidi olacağıq?***



-Bu sərəncam ilk növbədə şəhərlərimizin inkişafına yeni bir impuls verəcək. Paytaxt Bakımız yenidən qurularaq bərpa edilir. Köhnə məhəllələr və istismar müddəti bitmiş binalar sökülərək yerində yeni binalar və yaşıllıqlar salınır. İşğaldan azad olunmuş ərazilərdə 100-dən çox yeni şəhər və kəndin tikintisi gedir. Biz bu il çərçivəsində şəhərsalma və memarlıq sahəsini prioritet hesab edərək bu sahədə çox ciddi addımların atılmasını gözləyirik. Həm mövcud şəhərlərin inkişaf etdirilməsi istiqamətində, həm də yenidən tikilən şəhərlərlə bağlı yeni standartlar müəyyənləşir. Şəhərsalmada yaşıl texnologiyalara daha çox üstünlük verilməsi, ənənəvi şəhərsalmanın bu gün yaratdığı çətinliklərin aradan qaldırılması üçün müəyyən addımların atılması vacibdir.

***-Gələn il şəhərsalma, tikinti ilə bağlı qanunvericilikdə hansı dəyişikliklərin olacağı gözlənilir?***

-Yeni dövr yeni reallıqlar yarahibrid avtomobillərə ilin sonuna qədər güzəştlərin tətbiq olunması Çindən böyük miqdarda avtomobillərin idxalına yol açdı. Amma şəhərimizin küçələri bu qədər avtomobil yükünə hesablanmayıb. Ona görə şəhərin yol infrastrukturunun yenidən qurulması istiqamətində müəyyən addımlar atılmalıdır. Necə qurulmalıdır sualı yarana bilər. Təbii ki, bunun üçün ölkəmizə yaxşı təcrübəli mühəndislər dəvət olunmalıdır. Məsələn, 25 milyon əhalisi olan Şanxay şəhərində yol infrastrukturu elə qurulub ki, tıxac yoxdur və ya azdır. Tıxacların azalması üçün universitetlərin şəhərdən rayonlara köçürülməsi ilə bağlı fikirlər səslənir. Mən də hesab edirəm ki, bu lazımdır. Amma bu problemin həlli yolu deyil. Bunun üçün sökülən köhnə binaların yerində yeni binalar tikiləndə əvvəl olduğu yerdən geri çəkməli və yolun genişləndirilməsinə imkan yaradılmalıdır. Yollar genişlənməli, yol ayrıclarına yenidən baxılmalı, kəsişmələr və avtomobil axınının dır. Bu baxımdan şəhərsalma və memarlığın daha yaxşı səviyyəyə qaldırılması üçün qanunlarda da müəyyən dəyişikliklərin edilməsi mümkün olacaq.

***-Şəhərsalmadan danışmışkən Bakıdakı sıxlığı qeyd edə bilərik. Son illərdə regionlardan paytaxta gələnlərin sayı daha da artıb və şəhərdəki sıxlığı hər birimiz müşahidə edirik. Bu sıxlığın aradan qaldırılması üçün hansı addımlar atılmalıdır?***

-Təəssüf ki, şəhərdə yollarda sıxlıq günü-gündən artmaqdadır. Bunun kökündə urbanizasiya prosesinin sürətlənməsi dayansa da digər əsas səbəb avtomobillərin çoxalması ilə bağlıdır. Bu gün demək olar ki, hər bir ailədə ən azından bir maşın var. Elektrik və qovuşduğu nöqtələr isə azaldılmalıdır. Təbii ki, hər şey mümkündür. Şəhərsalma və memarlıqdan danışırıqsa, mütləq bu məsələlər prioritet seçilməlidir.

***-Siz də qeyd etdiyiniz kimi, paytaxtda köhnə tikililərin sökülməsi prosesi gedir. 2026-cı ildə köhnə binaların sökülməsinin daha da sürətlənəcəyi gözlənilirmi?***

-Bakının Baş planı təsdiq olunub və bu plana uyğun şəkildə paytaxtımızın yenidən qurulması prosesi davam etdirilir. Təbii ki, istismar müddəti keçmiş köhnə binaların sökülməsi və onların yeniləri ilə əvəz olunması prosesi gedir. Amma yeni binaların tikilməsində şəhərsalma standartları əsas tutulmalı və daha diqqətli olmalıyıq. Gələcəyin paytaxtı bu günün paytaxtından fərqlənməlidir. Şəhərdə yaşıllıqlar çoxalır. Bununla yanaşı, həm də yolların genişləndirilməsi, yağış sularının kənarlaşdırılması üçün drenaj sistemlərinin inşası vacibdir. Bu gün inkişaf etmiş ölkələrin əksər şəhərlərində yağış sularının kənarlaşdırılması üçün drenaj sitemləri qurulur. Hətta iqlimi daha yağışlı ölkələrin şəhərlərinin yollarında yağış sularının yığılması və sel basma hallarını görmürük. Bu da şəhər quruluşunun düzgün idarəedilməsi sayəsində mümkündür. Biz də paytaxtımızda və digər şəhərlərdə bu məsələyə önəm verməliyik.

***-Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda yeni şəhər və kəndlər salınır. "Şəhərsalma və Memarlıq İli" işğaldan azad olunmuş ərazilərdəki tikinti, quruculuq işlərinə hansı töhfəni verəcək?***

-Gələn ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması ancaq daxili tədbirlərimizlə kifayətlənməyəcək. Həm də 2026-cı ilin 17-22 may tarixlərində Bakıda Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının keçirilməsinin böyük əhəmiyyəti olacaq. Bakı şərq və modern memarlığını özündə birləşdirən dünyanın ən gözəl şəhərlərindən biridir. Forumda iştirak etmək üçün ölkəmizə çoxlu sayda şəhərsalma və memarlıq sahəsində təcrübəsi olan mütəxəssislər, rəsmi qonaqlar gələcəklər. Təbii ki, biz özümüzün şəhərsalma təcrübəmizi xarici tərəfdaşlarla bölüşəcəyik və onların səmərəli təcrübəsini şəhərlərimizin yenidən qurulmasında istifadə edəcəyik. Bu baxımdan, 2026-cı ilin ölkəmizin şəhərsalma və memarlıq sahəsinin yeni bir inkişafına təkan verəcək dövrü olacağını hesab edirəm.

***Anar Kəlbiyev***

49_27 IYUl-QARA.qxd 12/25/2025 9:26 PM Page 8



# Hotellərin ağlasığmaz Yeni il qiymətləri...

## Bayram günlərində kəskin bahalaşma: sadə vətəndaş üçün əlçatmaz rəqəmlər!

***Rayonlarda Yeni il bayramı günlərində hotel qiymətləri hətta 4300 manata kimi bahalaşıb. Bu yerli medianın apardığı araşdırmalar zamanı məlum olub.***

Qeyd etmək artıqdır ki, qış istirahətini ölkənin müxtəlif bölgələrində keçirməyi planlaşdıran vətəndaşlar üçün otel qiymətləri əsas maraq mövzularından birinə çevrilib. Xüsusilə Yeni il bayramı günləri üçün hotel qiymətləri çoxlarını düşündürür.

“Yeniavaz.com” onlayn rezervasiya platformalarında, o cümlədən məşhur ”booking.com” saytında yerləşdirilən məlumatlara istinadən xəbər verir ki, qış mövsümünün başlaması ilə əlaqədar hotellərin qiymətlərində ciddi artım müşahidə olunur. Eyni zamanda, populyar turizm bölgələrində bir çox hoteldə artıq boş yerlər qalmayıb.



Məlumatlara əsasən, xüsusilə dağlıq ərazilərdə və qış turizmi üçün əlverişli hesab olunan rayonlarda həm qiymətlər yüksəlib, həm də rezervasiya imkanları xeyli məhdudlaşıb. Bu hal son günlərdə səyahət planlaşdıranlar üçün əlavə çətinliklər yarada bilər.

Qeyd edək ki, qış istirahəti üçün əlverişli olan rayonlarda - Qusar, Qəbələ və Qubada yerləşən bəzi otellərdə son məlumatlara görə 2 nəfərlik otaqların qiymətləri (1 gecə, 2 gün) sözün həqiqi mənasında qan dondurur. Məsələn, Qusardakı “Pik Palace” hotelində 30-31 dekabr üçün qiymətlər 1320 AZN, 1-2 yanvar üçün isə 4342 AZN-dir. Yenə Qusardakı “”Park Chalet”də 30-31 dekabr üçün qiymətlər 700 AZN, 1-2 yanvar üçün 3550 AZN-dir.

Qəbələdə fəaliyyət göstərən “Qafqaz Riverside Hotel”də 30-31 dekabr üçün qiymətlər 335, 1-2 yanvar üçün 445 AZN olaraq müəyyənləşdirilib. Eyni tarixdə Qəbələnin başqa bir hotelində “Qafqaz Tufandağ Resort”da qiymətlər müvafiq olaraq belədir: 477 AZN və 3900 AZN.

Qəbələnin “Qafqaz Karvansaray Hotel”ində həm 30-31 dekabr, həm də 1-2 yanvar tarixləri üçün qiymətlər eynidir: 370 AZN.

Quba rayonunda yerləşən hotellərdə ilk baxışdan nisbətən daha münasib qiymətlər təklif olunur. ”Quba Palace Hotel & Golf Resort”da 30-31 dekabr üçün qiymət 255 manat, ”Arena Grand Hotel”də 160 manat, ”Cardinal Hotel Quba”da isə 144 manat təşkil edir. Bu hotellərdə 1-2 yanvar tarixləri üçün qiymətlər açıqlanmayıb.

Paytaxtın tanınmış hotellərindən olan “JW Marriott Absheron” hoteldə fəaliyyət göstərən restoranlarda Yeni il gecəsi üçün nəzərdə tutulmuş qiymətlər adambaşı 170-290 manat aralığında dəyişir. 31 Dekabr - Yeni il gecəsi üçün hoteldə gecələmə isə qiymətə daxil deyil. 2 nəfərlik 1 gecəlik gecələmə seçim ediləcək restoran nəzərə alınaraq təxminən 720 AZN təşkil edəcək.

“Fairmont Baku” hotel daxilində fəaliyyət göstərən hər bir restoranda da qiymətlər fərqlənir. Burada Yeni il gecəsi üçün təklif olunan paketlərin qiyməti (gecələmə daxil olmamaqla) 225 manatdan başlayaraq 395 manata qədər yüksəlir.

Bir sıra başqa hotellərin Yeni il münasibətilə qiymət təklifləri isə aşağıdakı kimi olub:

- Shamakhi Palace Sharadil: 1980 manatdan başlayan qiymətlərlə;
- Basqal Resort & Spa: 1660 AZN-dən başlayan qiymətlərlə;
- Shabran Wellbeing Resort: 1650 AZN-dən başlayan qiymətlərlə;
- Lankaran Springs Wellness Resort - 1500 manatdan başlayan qiymətlərlə
- Marxal Resort & Spa: 1420 AZN-dən başlayan qiymətlərlə;
- Quba Macara Lake Park: 1380 - 2150 manat ətrafında;
- Chinar Health Hotel: 620 manatdan başlayan qiymətlərlə...

Ümumiyyətlə, Naftalan, Şəki və Qax istiqamətində yerləşən bəzi hotellərdə qiymətlər 620-900 manat aralığından başlayır.

Şübhəsiz ki, yuxarıdakı rəqəmlər sadə vətəndaşlar üçün kifayət qədər əlçatmazdır və onların adları çəkilən, eləcə də adları çəkilməyən, lakin imkanları və xidmətləri eyni olan hotellərdə istirahət etməsi, Yeni ili qarşılaması, bayram keçirməsi qeyri-mümkündür.

Düzdür, araşdırmalar Yeni ili 3 ulduzlu hotellərdə daha münasib qiymətlərlə qarşılamağın mümkünlüyünü göstərir, lakin 4-5 nəfərlik bir ailənin ümumi xərclərinin qarşılığında da həmin hotellər sadə vətəndaşlar üçün elə də əlçatan deyil.

Onu da deyək ki, hotellərdə qiymət artımı əsasən bayram proqramları, əyləncə tədbirləri və yüksək tələbatla əlaqələndirilir. Lakin bəzi ekspertlər hər bir halda Azərbaycan reallığında bu qədər kəskin bahalaşmanın obyektiv səbəblərinə şübhə ilə yanaşırlar. Hətta iqtisadçı ekspert Natiq Cəfərli bu qiymət bahalığı ilə bağlı paylaşım edib. O qeyd edib ki, turizm şirkətlərindən biri, 28 dekabr - 1 yanvar arası, yəni, 4 gecə/5 günlük Dohaya yeni il turları təklif edirlər: ”Adambaşı, ortalama, 750 dollar qiymət təklif olunur, qiymətə daxildir: aviauçuş, mehmanxanada gecələmə, səhər yeməyi əsasında qidalanma, sığorta, transfer qrup. Hotellər 5 ulduzdur, siyahıda Cielo Hotel Lusail, Steigenberger Hotel & Residence Shaza Doha, City Centre Rotana Doha, Doubletree by Hilton Doha Old Town kimi gözəl otellər var. Yəni, 4 gecə 5 gün yeni ili Dohada keçirmək aviabilet daxil 750 dollar, yəni 1275 manatdır. Ancaq Şamaxıda 2 gün qalsan, bayram keçirsən 950 manat ödəməli olacaqsan. İndi özünüz seçin, 2 gecə Şamaxı 950 manatmı, yoxsa 4 gecə Doha 1275 manatmı?! Şamaxıda günü (gecəsi) 475 manat, Dohada günü (gecəsi) 318 manat!”

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır...

**Sənan Mirzə**

# Ali Məhkəmə Plenumunun növbəti iclası keçirildi



***2025-ci il dekabrın 24-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.***

”Unikal” xəbər verir ki, iclasda “Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərar layihəsi müzakirəyə çıxarılıb və qəbul edilib.

Sonra “Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il tarixli 16 nömrəli Qərarında əlavə və dəyişiklik edilməsi barədə Plenumun Qərar layihəsi müzakirə edilib və qəbul olunub.

“Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Plenumun Qərar layihəsinin müzakirəsi aparılıb.

İclasda ”Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişiklik edilməsi haqqında” Plenumun Qərar layihəsi də qəbul edilib.

Eyni zamanda 2024-cü ildə və 2025-ci ilin I yarımilliyində Sumqayıt Şəhər Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumatlar dinlənilib.

# Təhsil tələbə krediti müraciətlərinə hansı halda imtina verilir? - Sədr açıqladı

***Təhsil kreditləri üzrə seçim zamanı tələbələrin akademik göstəriciləri və sosial uyğunluğu əsas meyar kimi nəzərə alınır.***

”Unikal” xəbər verir ki, bunu bu gün Bakıda keçirilən Təhsil Tələbə Krediti Fondunun İdarə heyətinin sədri Behruz Əzimov fondun 4 illik fəaliyyətinə dair hesabat tədbirində jurnalistlərin suallarına cavablandırarkən bildirib.

Onun sözlərinə görə, təhsil kreditlərinin ayrılması üçün tələbənin göstəriciləri əsas rol oynayır: ”Əgər sosial kredit üzrə müraciət edən tələbənin sosial uyğunluğu sistemdə təsdiqlənmirsə, müraciətə imtina cavabı verilir.

Standart təhsil kreditində isə qiymət ortalaması əsas götürülür. Belə ki, tələbə ikinci və sonrakı semestrlərdə minimum 71 bal toplamalıdır. Əgər bu tələbi yerinə yetirməzsə, kredit verilməsindən imtina olunur. Həmçinin, hər iki kredit növü üzrə tələbənin akademik borcunun olması da imtina səbəblərindəndir”.

# Nazir və AZAL prezidenti İkinci Fəxri xiyabanda



***Bakı-Qroznı reysini yerinə yetirən ”Azərbaycan Hava Yolları”na (AZAL) məxsus ”Embraer 190” tipli sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında kənar təsirlər nəticəsində qəzaya uğramasının birinci ildönümü münasibətilə İkinci Fəxri xiyabanda məzarlar ziyarət edilib.***

”Unikal” xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, AZAL prezidenti Samir Rzayev, AZAL əməkdaşları və həlak olanların ailə üzvləri Milli Qəhrəmanlar Hökumə Əliyeva, İqor Kşnyakin, Aleksandr Kalyaninovun xatirəsini yad ediblər. Xatırladaq ki, Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin 2024-cü il dekabrın 25-də Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində təyyarədə olan 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

**Anar Kəlbiyev**

49_27 IYUI-QARA.qxd 12/25/2025 9:26 PM Page 9



# Murad Quliyevin məhkəmə araşdırması başladı



***O, dövlət əleyhinə çağırışlarda ittiham edilirdi***

Dövlət əleyhinə yönələn açıq çağırışlar etməkdə təqsirləndirilən Murad Quliyevin cinayət işi üzrə məhkəməsi başlayıb.

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib. Cinayət işi məhkəmə baxışına verilib və baxış iclası yanvarın 8-nə təyin edilib.

Qeyd edək ki, Quliyev Murad Qüdrət oğlu barəsində Cinayət Məcəlləsinin 281.1-ci (Hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərar qəbul edilib.

O, istintaqdan qaçaraq Azərbaycan hüdudlarından kənarda gizləndiyi üçün barəsində ittiham elan edilməsi ilə bağlı axtarış elan olunub. Binəqədi Rayon Məhkəməsinin bu il fevralın 15-dəki qərarı ilə barəsində qiyabi həbs qətimkan tədbiri seçilib.

Sentyabrın 12-də ittihamın məzmununa əlavələr və dəyişikliklər edilərək Murad Quliyev barəsində Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar; eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilib.

Qeyd olunub ki, o, 2019-cu il sentyabrın 23-də "Facebook" platformasında "Murad Quliyev" adlı səhifəsində və 2023-cü il dekabrın 24-də "Youtube" platforasında "Raff-Naff" adlı kanalda qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək Azərbaycanda qanuni əsaslarla formalaşmış və fəaliyyət göstərən mövcud hakimiyyətə qarşı zor tətbiqi çıxmağı təşviq edən açıq çağırışlar yayıb.

***Seymur Əli***

# Azərbaycanda problemli kreditlər artdı

***Azərbaycanda problemli kreditlərin məbləği 12 %-dən çox artıb.***



"Unikal" Mərkəzi Banka (AMB) istinadən xəbər verir ki, bu il dekabrın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 557,6 milyon manat təşkil edib.

Bu, noyabrın 1-i ilə müqayisədə 2,35 % çoxdur. Ölkədə problemli kreditlərin məbləği ilin əvvəlinə nisbətən 24,2 %, son 1 ildə isə 12,3 % artıb.

Noyabrın sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 1,8 % təşkil edib. Bu nisbət oktyabrın sonuna 1,7 %, ötən il dekabrın sonuna 1,5 %, ötən il noyabrın sonuna isə 1,7 % olub.

# Bakıda fərdi təhsil alan şagirdlərin sayı açıqlanıb



***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 182 təhsil müəssisəsində 561 şagird fərdi təhsil alır.***

Bu barədə "Unikal"a BŞTİdən məlumat verilib.

Bildirilib ki, fərdi təhsil müxtəlif səbəblərdən uzun müddət təhsildən kənarda qalmış şəxslərin fərdi qaydada təhsil almalarına şərait yaradır.

# Azərbaycan oliqarxiyasının qaranlıq üzü

## Yüz milyonlarla manatlıq sərvəti olanlar var, ancaq bir nəfər də rəsmi milyonçu yoxdur - Niyə?

***Dövlət Gömrük Komitəsi, Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı və Dövlət Sərhəd Xidmətinin vəzifəli şəxslərinin adlarının hallandığı, 6,4 milyon manatdan artıq aksizsiz tütün qaçaqmalçılığı ilə bağlı istintaq fonunda diqqətlər indi daha bir sensasion məqama yönəlib. Söhbət bu iş üzrə həbs edilən əsas fiqurlardan biri, "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin faktiki rəhbəri Ruslan Eyyubovun Xəzər dənizinin sahilində, Şüvəlan qəsəbəsində yerləşən 15 hektarlıq nəhəng ərazisindən gedir.***

Musavat.com xəbər verib ki, dənizin birbaşa sahilində yerləşən bu ərazinin yalnız 5 hektarı bağ evi və malikanə kimi istifadə olunur. Qalan 10 hektarlıq sahənin nə məqsədlə ayrıldığı, hansı infrastrukturun mövcud olduğu isə açıq sual olaraq qalır. İstintaqın qaçaqmalçılıqla bağlı versiyalarını nəzərə alsaq, bu sual daha da kəskinləşir. Həmin əraziyə dəniz yolu ilə gəmilərin yanaşması texniki baxımdan mümkün idimi? Bu sahə alternativ liman funksiyası daşıya bilərdimi?



Rəsmi qurumlar hələlik bu suallara cavab verməsə də, mövcud faktlar ciddi şübhələr doğurur.

Bildirilir ki, Ruslan Eyyubovun bağındakı hovuzun həcmi 10 sotdan yuxarı olub.

"Google Maps"da bağın ölçüləri - eni 136 metr, uzunluğu 374 metrdir. Bu da bağ evinin 5.8 hektar ərazini əhatə etdiyini ortaya qoyur.

Məlum olan budur ki, 5 hektarlıq bağ evinin daxilində yerləşən kompleksin miqyası isə sadəcə bağ evi anlayışını aşır. Tikilinin adı "Tarkhan" - Qubernatorun Dəniz Sarayı kimi təqdim olunur. Malikanənin ərazisində məscid, "Sübhə" Sarayı, Minarə evlər, Badukubə Sarayı, İmaməddin Sarayı, İnqilab Evi, Arxaik Muzey, Çay Evi, Çəməngül Bağı, Fəvvarə, MİNAR Qəbul Evi, qarajlar, İç Meydan mövcuddur.

Ən diqqətçəkən detallardan biri isə məsciddir. Məscidin hasarında 99 ədəd gümbəz yerləşir və hər birinin üzərində Allahın 99 adı yazılıb. Kompleksin mərkəzindəki fəvvarə isə ayrıca simvolik məna daşıyır. Yuxarıdan dronla baxıldıqda fəvvarənin ortasında Azərbaycanın xəritəsi aydın görünür. Məlumata görə, bu nəhəng kompleksin tikintisinə Türkiyədən mühəndislər və ixtisaslı işçilər cəlb olunub. Tikinti və dizayn işlərinə milyonlarla manat vəsait xərcləndiyi bildirilir.

Bu qədər böyük maliyyə resursunun mənbəyi isə istintaq fonunda daha aktual sual doğurur. Ruslan Eyyubov "NB" Şirkətlər Qrupunun rəhbəri, ölkənin kimya sənayesi sektorunda ciddi paya malik iş adamıdır. Onun şirkətləri mərmər, bahalı daşlar, qranit, boyalar və digər sənaye materiallarının istehsalı və nəzarəti ilə məşğuldur. Cəmi bir neçə gün öncə Gəncədə iri zavod açılışı da edib.

Xatırladaq ki, Ruslan Eyyubov general-polkovnik Bəylər Eyyubovun qardaşı oğludur.

"Unikal" olaraq onu da vurğulayaq ki, Azərbaycanda bir sıra indiki və keçmiş məmurların, müxtəlif iş adamlarının ağlasığmaz sərvət sahibi olması əslində kimsəyə sirr deyil. Əksər hallarda isə həmin sərvətin mənbəyi müxtəlif suallara yol açır. Ən düşündürücü məqamlardan biri isə budur: ölkədə Rüstəm Eyyubov kimi böyük maliyyə resursuna sahib şəxslər (onlardan bəziləri biznesmen, bəziləri hansısa vəzifəli şəxsin ailə üzvü, bəziləri də elə vəzifəli şəxsin özü olaraq!) ortaya çıxırlar, lakin Azərbaycanda bircə nəfər də rəsmi milyonçu yoxdur. Bu absurdu, təzadı necə izah etmək olar?

Ekspertlərin fikrincə, əslində cavab sadədir. İlk növbədə ölkədə illik gəlir deklarasiyası anlayışı faktiki olaraq yoxdur. Mütəxəssislər xatırladırlar ki, bu anlayış tətbiq edilərsə, Azərbaycanda varlı insanların sayını, yaxud ən çox vergi ödəyənlərin kimliyini müəyyənləşdirmək mümkün olardı. "Hətta Türkiyədə bunun üçün xüsusi mükafat var. Ən çox vergi ödəyən fiziki şəxslərə Türkiyə dövləti hədiyyə verir" - ekspertlər qeyd edirlər. "Bəlkə də, Cənubi Qafqazda ən çox qeyri-rəsmi milyonçular bizdədir, amma bizdə rəsmi milyonçu yoxdur. Bizdən kasıb olan Ermənistanda belə 70-ə yaxın milyonçu var. Çünki orda gəlir deklarasiyası anlayışı var" - bir müddət öncə iqtisadçı ekspert Natiq Cəfərli vurğulamışdı.

Ekspertlər qeyd edirlər ki, iri məmurların, eləcə də onların himayəsindəki iş adamlarının gəlir deklarasiyasının tətbiqində maraqlı olmaması anlaşılandır. Belələrinin rəsmi gəlirləri ilə real həyatları arasında kəskin fərq var. Həmin fərqi isə heç bir oliqarxın məntiqli, ağlabatan şəkildə izah etməsi mümkün deyil. Əgər gəlir deklarasiyası olsa, sualllar yaranacaq ki, hansısa bir məmur məsələn, 1500-2000 manat maaş alır, lakin yaşadığı mülkün milyonlarla manat, sürdüyü avtomobilin yüz minlərlə manat qiyməti var. Bu ziddiyyəti kim çıxıb inandırıcı formada izah edə, əsaslandıra bilər? Əlbəttə, heç kim! Belədə ən yaxşısı gəlirlərini və gəlir yerlərini gizlətməkdir.

Lakin son zamanlar məmur korpusunda aparılan TƏMİZLƏNMƏ və SAĞLAMLAŞDIRMA prosesi eyni zamanda şübhəli oliqarxlaşmanın gizlinlərini də gün işığına çıxarmaqdadır. Bu proses bir daha təsdiqləyir ki, istər ayrı-ayrı məmurların, istər onların yaxınlarının, ailə üzvlərinin, istərsə də himayələrindəki iş adamlarının çoxunun sahib olduğu var-dövlətin əslində qeyri-qanuni yollarla toplandığına dair cəmiyyətdə uzun illərdir formalaşan qənaət heç də əsassız deyilmiş...

***Toğrul Əliyev***

# Mehdiyevlərin daha iki klinikasının başı üstündə "qara buludlar" sıxlaşır

## "Boz kardinal"ın yaxın adamları tərəfindən mənimsənilən özəl tibb müəssisələrinin aqibəti necə olacaq? - Sensasiyalı təfərrüatlar!

***Ramiz Mehdiyevin ailə üzvlərinə məxsus daha iki klinika ilə bağlı ilginc məqamlar ortaya çıxıb. Belə ki, öncə Gəncə şəhərində yerləşən "Yeni Gəncə" Tibb Mərkəzi ətrafında qalmaqal baş verib. "Boz kardinal"ın sabiq deputat olan kürəkəni İlham Əliyev Samir və Fərid adlı şəxslərlə birlikdə qurduğu tibb mərkəzindən sonradan onları kənarlaşdırıb.***

Ramiz Mehdiyevin yüksək vəzifədə olduğu illərdə klinikadan uzaq salınan bu şəxslər qorxularından heç bir orqana şikayət belə etməyib. Yalnız Mehdiyevin cinayət məsuliyyətinə cəlb olunmasından sonra hərəkətə keçən tərəflər klinikaya sahib çıxa biliblər.

"Gununsesi.info"nu məlumatlandıran mənbə deyib ki, sabiq deputat sakit şəkildə klinikanı keçmiş sahiblərinə qaytarıb. Hazırda bu tibb müəssisəsinə sahiblənən Samir və Fərid adlı şəxslər isə orada çalışan personalın ötən aylardan qalmış əmək haqlarını ödəmək istəmir.



Belə ki, onlar personala bu borcun Mehdiyevin kürəkənindən tələb olunmasını tövsiyə ediblər. "Yalnız gələcək maaşlarınızı biz ödəyəcəyik" deyə onlara qəti mövqe bildirilib.

"Boz kardinal"ın kürəkəni isə baş verənlərlə bağlı deyib ki, "Yeni Gəncə" Tibb mərkəzi ilə bağlı heç bir problem yoxdur: "Hər şey öz qaydasındadır. Hər hansı problem yoxdur. Təşəkkür edirəm, çox sağ olun".

Onun reaksiyasından belə anlaşılıb ki, "Yeni Gəncə" Tibb Mərkəzi hələ də Mehdiyevlərin nəzarətində qalır. Əgər belədirsə, onda bunun nə qədər davam edəcəyini zaman göstərəcək.

Hazırda dövlət çevrilişinə cəhddə ittiham olunan və barəsində dörd aylıq ev dustaqlığı qərarı çıxarılan Prezident Admnistrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin vəzifə başında olarkən törətdiyi başqa bir qanunsuzluq isə "Pendik Şifa" klinikası ilə bağlı olub. İddiaya görə, "boz kardinal" bu klinikanı faktiki olaraq mənimsəyib. Belə ki, "Tribuna.az"a müraciət edən klinikanın sahibi Şeydayev Sarvan Mahir oğlu bildirib ki, sahibi olduğu klinika Binəqədi rayonu, S.S.Axundov 20 C ünvanında yerləşib. O qeyd edib ki, hazırda həmin klinika "İstanbul" adı ilə fəaliyyət göstərir. Şeydayev yazır ki, o, əmisi oğlu Şeydayev Cavad Məzahir oğlu ilə şərik olublar. "Biz həmin klinikanı 2013-cü ildə satışa çıxardıq. Bir müddətdən sonra klinikaya Quliyev Əziz Göyüş oğlu adlı bir müştəri gəldi və klinikanı almaq istədiyini dedi. Mən Cavadla klinikanı 5000000 (beş milyon) manata satmağı danışmışdıq, elə həmin qiymətdə Quliyev Əzizə təklif etdik. Əziz qiyməti eşitdikdən sonra sabah yenidən gələcəyini söylədi və getdi". Şikayətçi bildirib ki, səhəri gün o klinikaya müəyyən işləri ilə əlaqədar biraz gec gəlib. "Əmim oğlu mənə dedi ki, Əziz yanında da Anar adlı bir şəxslə gəlmişdi. Mənə dedi ki, Anar müəllim Ramiz Mehdiyevin köməkçisidir, mən isə Ramiz müəllimin biznes işlərini görürəm, klinikada Ramiz müəllim üçün alınır. Daha sonra Əziz əmim oğlu Cavada deyib ki, sən klinikanı bizə 4 milyon manata ver. Biz də Ağsaqqalın yanında hörmətli olaq, sənin də gələcəkdə nə işlərin olsa biz də sənə hörmət edərik. Cavad onların təklif etdiyi qiymətlə razılaşmayıb". İddiaçının sözlərinə görə sonradan Ə.Quliyev onları aldadıb: "Cavad klinikanın alqı-satqı məsələsi ilə məşğul olan vaxtda mən rayonda bağ evimin tikintisinə başım qarışmışdı. Ona görə bu işlərdə yaxından iştirak edə bilmirdim. Lakin gündə işlərin gedişatı barədə Cavadla müntəzəm telefon əlaqəsi saxlayırdım... Razılaşmaya əsasən avqust ayının 5-də klinikanın banka olan borcu bağlanaraq, Əzizin adına keçirilib. Əziz klinikanın pulundan bankın borcu qarışıq ümumilikdə Cavada 3181000 (üç milyon yüz səksən bir min) manat pul ödəyib. Yerdə qalan 919000 (doqquz yüz on doqquz min) manat pulu isə hissə-hissə ödəyəcəyini bildirib. Bu borc qalığını 12 saylı natariusun rəisi Hacıyev Hünər də təsdiqləyə bilər. Çünki alqı-satqını Hünər müəllim həyata keçirib və Əziz onun yanında 919000 manat borcu qaldığını söyləyib..."

Lakin bir müddət sonra Əziz klinkaya gələrək Cavadla görüşüb və bildirib ki, "ağsaqqala" (R.Mehdiyev nəzərdə tutulur - red.) dedim, klinikaya görə əvvəlki sahibinə 919000 manat borcum qalıb: "Ramiz müəllim məndən soruşdu ki, sən alqı-satqını etmisən? Mən də cavab verdim ki, bəli 3181000 manat Cavada pul vermişəm. Bundan sonra Ramiz müəllim mənə dedi ki, sən ona yetərincə pul vermisən və ona heç bir borcun yoxdur". Cavad isə Əzizə deyib ki, deməli, sən mənə Ramiz Mehdiyevin adından istifadə edərək oyun qurdun və məni aldatdın, belə olan təqdirdə mən də notariusa gedərək alqı-satqı müqaviləsini dərhal ləğv etdirəcəyəm. Bunu eşidən Əziz onu hədələyərək deyib: "Sənin 2 balan var, onlara yazığın gəlsin, sən kiminlə oyun oynadığını hələ deyəsən anlamırsan". Daha sonra Cavad klinikanı dərhal tərk edərək notariusa yollanıb və natariusda alqı-satqı müqaviləsinin ləğv olunması üçün ərizə vermək istədiyini bildirib. Lakin notariusdan ona bildiriblər ki, bu müqavilə hər iki tərəfin ərizələri əsasında ləğv oluna bilər. Əziz isə bu ərizəni verməyib.

Şeydayev bildirib ki, onlar Əziz Quliyevdən hüquq mühafizə orqanlarına şikayət ediblər. Lakin nəticə olmayıb. Üstəlik, dəfələrlə Ramiz Mehdiyevin yaxın ətrafındakı adamlarla, onun kürəkəni ilə, oğlunun yaxın dostu ilə görüşüblər, ancaq bunlar da fayda verməyib. Şikayətçi sonda qeyd edib ki, Əziz Quliyevin onların başına açdığı oyundan sonra müflis olub.

Bütün bunlardan sonra belə görünür, Mehdiyevlərin mənimsədiyi hər iki qalmaqallı klinika ilə bağlı qarşıdakı dövrdə ilginc yeniliklər ola, onlar həqiqi sahiblərinə qaytarıla bilər.

Onu da deyək ki, bundan əvvəl "boz kardinal"ın kürəkəni İlham Əliyevə məxsus "German Hospital"ın fəaliyyətini dayandıracağı barədə xəbər yayılmış, həmin xəbər qarşı tərəfdən təkzib edilməmişdi.

Qısası, Mehdiyevlərin özəl klinika biznesi üzərindəki "qara buludlar" getdikcə sıxlaşmaqdadır.

***Sənan Mirzə***



# Mnatsakanyan ibtidai istintaqda dediklərindən imtina etdi

***Dekabrın 25-də Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.***

"Unikal" xəbər verir ki, məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyan son söz çıxışını davam etdirib. Təqsirləndirilən şəxs ona qarşı irəli sürülən ittihamlarla razılaşmadığını bildirib və deyib: "Mənə qarşı irəli sürülmüş ittihamların heç birində özümü günahkar hesab etmirəm".

O, ibtidai istintaqda dediklərindən imtina etdiyini söyləyərək, məhkəmədən qərar qəbul edərkən yalnız məhkəmədə dediklərinin əsas kimi götürülməsini xahiş edib. L.Mnatsakanyan fikirlərini sona qədər ifadə etməyə şərait yaratdığına görə məhkəməyə təşəkkür edib. Sonda o, üç gün ərzində etdiyi çıxışı - 51 səhifəlik mətni məhkəmə protokollarına əlavə etmək üçün məhkəməyə təqdim edib.

Ardınca təqsirləndirilən şəxs Arkadi Qukasyan son söz çıxışına başlayıb.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Şagird və tələbələr arasında statistika üzrə olimpiada keçiriləcək

***Yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında statistika üzrə olimpiada təşkil ediləcək.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycanda rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qeyd edilib.

# Avtobuslar yanvarın 1-də saat 01:30-dək fəaliyyət göstərəcək

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar Bakı şəhərində fəaliyyət göstərən müntəzəm marşrutlar yanvarın 1-də saat 01:30-dək fəaliyyət göstərəcək.

Bu barədə "Unikal"a AYNA-dan bildirilib. Qeyd edilib ki, bayram günlərində xüsusilə Dənizkənarı Milli Park və şəhərin mərkəzi əraziləri istiqamətində Yeni il şənlikləri və atəşfəşanlıqla əlaqədar sərnişin axınının daha intensiv olacağı nəzərə alınaraq təhlükəsiz, rahat və fasiləsiz daşınmanın təmin edilməsi məqsədilə müntəzəm marşrutlar üzrə fəaliyyət göstərən daşıyıcılara müvafiq tapşırıqlar verilib.

Qeyri-iş günlərində də sərnişindaşıma fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil edilməsi, sürücülərin təsdiq olunan hərəkət qrafikinə riayət edilməsinə nəzarətin gücləndirilməsi daşıyıcıların diqqətinə çatdırılıb.

49_27 IYUI-QARA.qxd 12/25/2025 9:26 PM Page 11





# Məhkəmə hakimi olmaq istəyənlərin nəzərinə!

***Hakimlərin Seçki Komitəsi tərəfindən hakim ştatlarının yüksək hazırlıqlı hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi davam etdirilir.***

Bu barədə "Unikal"a Hakimlərin Seçki Komitəsindən məlumat verilib.

Namizədlərin seçimində çevikliyin təmin edilməsi, habelə onların imtahanlara hazırlaşmalarına şəraitin yaradılması məqsədilə müsabiqənin ilkin mərhələsi olan test imtahanının 2026-cı il iyun ayının 28-də keçirilməsi qərara alınıb.

Namizədlərin imtahanlara mükəmməl hazırlaşmalarına köməklik məqsədilə imtahan suallarına dair annotasiyanı, habelə imtahan qaydalarını, namizədlərin imtahanla bağlı vəzifələrini və imtahan suallarının nümunələrini özündə əks etdirən "Hakim vəzifəsinə namizədin yaddaş kitabçası" Məhkəmə-Hüquq Şuranın rəsmi internet səhifəsində (jlc.gov.az) yerləşdirilib.

İmtahanla bağlı buraxılış vərəqələrinin təqdim olunması və digər aidiyyəti məsələlərə dair əlavə məlumat veriləcəkdir.

Sənədlər Hakimlərin Seçki Komitəsi tərəfindən bütün iş günləri ərzində, o cümlədən elektron poçt (hsk@jlc.gov.az) ünvanı vasitəsilə qəbul edilir.

Hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

## 2025-ci ilin 9 ayında Ağdaşda pərakəndə ticarət dövriyyəsinin statistikası




***2025-ci ilin yanvar-sentyabr aylarında ticarət şəbəkələrində əhaliyə faktiki qiymətlərlə 282 milyon 652,9 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çox istehlak malları satılmışdır.***

Satılmış istehlak mallarının 19,0 faizi hüquqi şəxslərin, 81,0 faizi isə fərdi sahibkarlar, bazar və yarmarkaların payına düşmüşdür. Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə əmtəə dövriyyəsinin 28,2 faizi fərdi sahibkarlara, 71,8 faizi isə bazar və yarmarkalara aid olmuşdur.

Hesabat dövründə pərakəndə ticarət şəbəkələrində satılmış məhsulların 66,2 faizini qida məhsulları, içkilər və tütün məmulatları, 33,8 faizini qeyri-qida məhsulları təşkil etmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında ticarət; nəqliyyat vasitələrinin təmiri üzrə məhsul buraxılışı faktiki qiymətlərlə 90 milyon 448,9 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 1,9 faiz çox olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Əhməd Lətifov***

# "AST Telman"la erməni müxalifətinin lideri arasında milyonlarla dollarlıq müəmma

## Samvel Karapetyan illər öncə oğlunun bahalı toyunu niyə azərbaycanlı milyarderin restoranında edib? - Şok detallar!

***Ermənistanın baş naziri Nikol Paşinyanın kürəkəninə məxsus "Haykakan Jamanak" qəzeti müxalifət liderlərindən olan biznesmen Samvel Karapetyanla bağlı maraqlı xəbər dərc edib. Belə ki, adıçəkilən nəşr 2016-cı ildə "Bizim Yolumuz" Hərəkatının rəhbərinin oğlunun toyu ilə bağlı detalları açıqlayıb.***

Xəbərdə deyilir ki, Samvel Karapetyan 2016-cı ildə Moskvanın "Safisa" ziyafət zalında oğlu Sarkis Karapetyana toy edib. "O, bu məsələyə münasibət bildirməkdən yayınır. Çünki o dövrdə Moskva "Safisa" ziyafət salonu məşhur Azərbaycanlı iş adamı, "AST Telman" ləqəbli Telman İsmayılova məxsus idi".

Erməni qəzeti daha sonra başqa bir paralel də aparıb: "Samvel Karapetyanın fikrincə, azərbaycanlıya məxsus restoranda 2 milyon dollara toy təşkil etmək olar, amma dövlətlərarası münasibətləri normallaşdırmaq üçün Azərbaycandan benzin almaq olmaz".

"Unikal"ın araşdırması nəticəsində məlum olub ki, haqqında danışılan toyda Samvel Karapetyanın 23 yaşlı oğlu Sarkislə Salomeya adlı gürcü qızı evlənib. Dəbdəbəli toyda bir çox məşhur sima, şou biznes ulduzları, o cümlədən Ermənistanın həmin vaxtkı əliqanlı prezidenti Serj Sərkisyan da iştirak edib.

Toy mərasimini Andrey Malaxov və Vera Brejneva aparıblar. Musiqi tərtibatı isə Alla Puqaçova və Qriqori Lepsə tapşırılıb. Məşhur "Maroon 5" qrupunun solisti Adam Livaynın çıxışı isə toyda iştirak edənlər üçün sürprizə çevrilib.

Maraqlısı odur ki, daima Azərbaycan mədəniyyəti incilərini mənimsəməyə cəhd edən ermənilər bu dəfə də öz xislətlərindən əl çəkməyiblər. Belə ki, azərbaycanlı milyarderin restoranında baş tutan erməni toyunda Azərbaycan musiqisi səslənib. Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" operettasında səslənən "Uzundərə" xalq musiqisi erməni rəqsi kimi qələmə verilib. Bəy və gəlin məhz bu musiqinin sədaları altında rəqsə qalxıb, daha sonra isə çeçen milli rəqsini də özününküləşdirən mədəniyyət və tarix oğruları onu da "erməni milli rəqs"i adı altında təqdim ediblər.

Toyun baş tutduğu illərdə Samvel Karapetyan turizm, inşaat, daşınmaz əmlak sektorunda milyardlarca dollarlıq sərvəti ilə Rusiyanın dünyaca zəngin iş adamlarından biri kimi təqdim olunurdu (son olaraq "Forbes" jurnalının versiyasına görə, o, 3.2 milyard ABŞ dolları sərvəti ilə Rusiya milyarderləri siyahısında 44-cü yerdədir). Futbol üzrə Ermənistan millisinə qazandığı hər matçdan sonra 200 min dollar mükafat verməsi ilə tanınan iş adamı ölkəsinin siyasi həyatına da elə o vaxtdan təsir edə bilirdi. İndi isə Karapetyan xüsusilə Ermənistanın rusmeylli dairələrində Paşinyanın əsas rəqibi kimi təqdim olunur.

Onun öz oğluna məhz Azərbaycan əsilli bir iş adamının - hazırda müflis sayılan "AST Telman"ın restoranında toy etməsi isə bir neçə aspektdən təəccüblü deyil. Əvvəla, T.İsmayılov heç vaxt milli hissləri ilə ön plana çıxmayıb, ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi faktı onun üçün hər hansı anlam daşımayıb. İsmayılovu daha çox vardövlət məsələləri düşündürüb.

İkincisi, o, Kremlin Azərbaycanla bağlı gizli planlarında yer alıb. Belə ki, məlum və qalmaqallı "Milyarderlər İttifaqı"nın - Azərbaycanda hakimiyyət çevrilişini hədəfləyən, lakin sonda iflasa uğrayan qaranlıq qrupun üzvləri arasında "AST Telman" da vardı.

Bir sözlə, Samvel Karapetyan kimi revanşist ruhlu bir ermənin T.İsmayılovu özünə yaxın hiss etməsi, ən azından oğluna onun restoranında toy keçirməməsi üçün heç bir səbəb yox idi.

Xatırladaq ki, Samvel Karapetyan iyunun 18-dən etibarən həbsdə saxlanır. Müdafiə tərəfi onun Ermənistan Apostol Kilsəsinə dəstəyinə görə siyasi təqiblərə məruz qaldığını iddia edir. Noyabrda yerli məhkəmə həm də "Tashir Group" şirkətlər qrupunun sahibi və iş adamı olan Samvel Karapetyanın həbs müddətini daha iki ay uzadıb.



Onu da deyək ki, hazırda həbsdə olan iş adamı və siyasətçi Karapetyanla bağlı son vaxtlar Rusiya əməlli-başlı hərəkətə keçib. Baş nazir Nikol Paşinyana təzyiq üçün hazırda Samvel Karapetyandan başqa əsas namizəd yoxdur. Doğrudur, Moskvanın əlində sabiq prezidentlər-Robert Köçəryan və Serj Sərkisyan da var. Amma görünən odur ki, Kreml onlardan hələ istifadəni məqbul hesab etmir.

Doğrudur, Moskva indiyədək Karapetyanın azadlığına nail ola bilməyib. Lakin ekspertlər hesab edirlər ki, 2026-cı ilin iyun ayında keçiriləcək parlament seçkilərinə qədər Karapetyan Moskvanın istifadə edəcəyi əsas sima olaraq qalacaq. Paşinyanın "Taşir Kapital" şirkətinin sahibini ən azından gələn il iyun ayına qədər həbs müddətini uzatmaq yolu ilə məhbəsdə saxlayacağı ehtimal edilir.

"Samvel Karapetyan məsələsi artıq sırf hüquqi çərçivədən çıxaraq Ermənistanın daxili siyasi mübarizəsinin və Rusiya-Qərb qarşıdurmasının tərkib hissəsinə çevrilib. Moskva Karapetyanı Paşinyan hakimiyyətinə qarşı siyasi təzyiq aləti kimi istifadə edir" - bunu bir neçə gün öncə "Musavat.com"a Milli Məclisin deputatı Vüqar İskəndərov demişdi. Onun fikrincə, seçkilərə qədər Rusiyanın diplomatik və siyasi rıçaqları işə salınarsa, Karapetyanın azadlığa buraxılması real ssenari kimi görünür.

***Toğrul Əliyev***

49_27 IYUl-QARA.qxd 12/25/2025 9:26 PM Page 12



**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ədalət və Mərhamət Yolu: “Konstitusiya və Suverenlik İli”ndə Amnistiya

## Əliməmməd Nuriyev: “Bu, ədalət, humanizm və təhlükəsizlik modelinə uyğun olan amnistiyadır”

***Bir neçə gün öncə Milli Məclisdə amnistiya elan edilməsi məsələsi müzakirəyə çıxarılıb. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən amnistiya təşəbbüsünün 20 min vətəndaşa şamil edilməsi gözlənilir. “Prezident İlham Əliyevin “Konstitusiya və Suverenlik İli” münasibətilə Milli Məclisə təqdim etdiyi Amnistiya Qərarının layihəsi əhatə dairəsinə görə Azərbaycanın müstəqillik dövründə ən genişmiqyaslı amnistiya sənədi kimi qiymətləndirilir. Qərarın ümumilikdə 20 minə yaxın şəxsə şamil ediləcəyi gözlənilir ki, onlardan 5 mindən çoxunun azadlıqdan məhrumetmə cəzasından azad olunacağı bildirilir.***



Qeyd edək ki, Prezident İlham Əliyevin siyasi kursunun əsas xüsusiyyətlərindən biri hüquqla humanizmin vəhdətidir. Amnistiya təşəbbüsləri dövlətin güclü olduğu halda belə mərhəmət nümayiş etdirdiyini göstərir. Bu yanaşma beynəlxalq aləmdə də Azərbaycanın hüquqi dövlət imicini möhkəmləndirir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli plenar iclasda amnistiya ilə bağlı qərar layihəsinin müzakirəsi zamanı bildirib ki, son 30 il ərzində imzalanmış 71 əfv fərmanı ilə 10 mindən artıq məhkum azadlığa buraxılıb.

Onun sözlərinə görə, qəbul edilmiş 12 amnistiya qərarı isə 130 mindən çox şəxsə şamil olunub.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan Konstitusiyası insan hüquq və azadlıqlarının təminatını ali məqsəd kimi müəyyən edir. Amnistiya aktları da məhz bu konstitusion prinsiplərdən irəli gələrək cəmiyyətin sosial ədalətə, mərhəmətə və islahata verdiyi önəmi ifadə edir.

Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev “Unikal” qəzetinə açıqlamasında bildirib ki, amnistiya dövlətin özünə olan inamının göstəricisidir. Onun sözlərinə görə, “Prezidentin “Konstitusiya və Suverenlik İli” münasibətilə Amnistiya təşəbbüsü ilə çıxış etməsi alqışlanmalıdır. Bununla belə, hüquqşünas amnistiyanın 20 min insanın həbsdən buraxılması anlamına gəlmədiyini söyləyib. O bildirib ki, amnistiya 20 mindən çox adama şamil ediləcək. Bunlardan 5 mindən artıq məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi gözlənilir. Azadlıqdan məhrum edilmiş 3 mindən çox şəxsin isə cəzası azaldılacaq. Bundan başqa, 7 mindən artıq məhkum azadlığın məhdudlaşdırılması cəzasından, təxminən 4 minə yaxın şəxs isə alternativ cəzalardan (islah işləri, ictimai işlər, cərimə, şərti cəza) azad olunacaq.

“Milli Məclisə təqdim olunmuş Amnistiya aktının layihəsinə əsasən, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olan və ya xəbərsiz itkin düşənlərin yaxın qohumlarının, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olanların, qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və s. kateqoriyadan olanların da cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur. Layihə miqyas baxımdan da çox böyükdür. 2021-ci ildə qəbul olunmuş bundan əvvəlki Zəfər Amnistiyası 17 min 200 nəfərə şamil edilmişdi. Bu amnistiya təkcə cəzaçəkmə müəssisələri üçün yox, ümumiyyətlə cəza yükünü azaldan akt kimi qəbul oluna bilər. Hesab edirəm ki, ilin sonuna yaxın Milli Məclis tərəfindən belə bir qərarın qəbulu çoxsaylı ailələri sevindirir və sevindirməkdə davam edəcək”.

Müsahibimiz bildirib ki, Amnistiya Aktı konkret şəxslərə yox, maddələrə şamil olunur. Əsasən böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələrə amnistiya şamil olunacaq:”Elə anlaşılmamalıdır ki, Amnistiya Aktı layihəsində göstərilmiş kateqoriyadan olan şəxslər törətdiyi cinayətdən asılı olmayaraq, cəzadan və ya cinayət məsuliyyətindən azad ediləcək. Layihədə göstərilmiş kateqoriyadan olan şəxslərin hansı cinayəti törətməsindən asılı olmayaraq, birmənalı şəkildə onların cəzadan və ya cinayət məsuliyyətindən azad olunması nəzərdə tutulmur. Çünki layihədə məhdudiyyətlər də var. Yəni məhdudiyyətlər nəzərə alınmaqla, o şəxslərə şamil oluna bilər. Məsələn, dövlət əleyhinə olan cinayətlərə ümumiyyətlə, amnistiya tətbiq olunmur. Bir sözlə, Amnistiya Aktı humanistdir, amma tətbiqi üçün müəyyən filtrlər var. Bu ədalət, humanizm və təhlükəsizlik modelinə uyğun olan amnistiyadır” deyə hüquqşünas bildirib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Konstitusiyası ölkədə hüquq və azadlıqların təminatçısı olmaqla yanaşı, ədalət, bərabərlik və insan ləyaqətinə hörmət kimi ali dəyərləri özündə ehtiva edir. Amnistiya aktları məhz bu konstitusion prinsiplərdən irəli gələrək, cəmiyyətə yenidən inteqrasiya imkanlarının genişləndirilməsinə xidmət edir.

“Konstitusiya və Suverenlik İli”ndə amnistiyanın tətbiqi xüsusi rəmzi məna daşıyır. Tam bərpa olunmuş dövlət suverenliyi şəraitində həyata keçirilən bu addım hüquqi dövlət quruculuğunun yeni mərhələyə qədəm qoyduğunu göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar fonunda amnistiya sosial ədalətin təmin olunması, cəmiyyətlə dövlət arasında etimadın daha da möhkəmləndirilməsi məqsədi daşıyır. Ekspertlərin fikrincə, amnistiya yalnız hüquqi akt deyil, eyni zamanda sosial-siyasi əhəmiyyətə malik tədbirdir. Bu addım cəza siyasətində fərdi yanaşmanın, islah və tərbiyə məqsədinin ön planda tutulduğunu nümayiş etdirir. Xüsusilə az ağır və böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş şəxslərin cəmiyyətə qaytarılması həm ailələr, həm də bütövlükdə ictimai mühit üçün müsbət təsir yaradır.Nəticə etibarilə, “Konstitusiya və Suverenlik İli” çərçivəsində amnistiya təşəbbüsü hüquqi dövlət prinsipinin möhkəmlənməsinə, milli həmrəyliyin gücləndirilməsinə və cəmiyyətdə sağlam mənəvi mühitin formalaşmasına xidmət edən mühüm addım kimi dəyərləndirilir. Bu, müasir və güclü Azərbaycanın insan mərkəzli siyasətinin növbəti təzahürüdür.

***Gülayə Mecid***



# "Avropa bizdən qəhrəmanlıq öyrənə bilər" - Hökumənin qardaşı

***”Bacımın qəhrəmanlığı ilə sona qədər fəxr edəcəyik. Biz onun fədakar olduğunu uşaqlıqdan bilirdik. Hökumə Əliyeva dünyaya sübut etdi ki, Avropa Azərbaycan xanımlarından qəhrəmanlıq öyrənə bilər”.***

”Unikal” xəbər verir ki, bunu bu gün II Fəxri xiyabanda Milli Qəhrəman Hökumə Əliyevanın qardaşı Coşqun Nəsibli deyib. O bildirib ki, bu 200 ildən bir baş verən hadisədir: ”Bacım həmişə qəhrəman olacağını deyirdi. Müasir dövrdə hamı Avropadan geyim, mədəniyyət öyrənir. Avropa da bizdən qəhrəmanlıq öyrənə bilər. Hökumə uşaqlıqdan, tələbəlik sən səbrli insan idi. Təyyarə qəzasından da o cür səbr nümayiş etdirdi, insanları təşvişə düşməməyə səslədi və qəhrəmanlıqla həlak oldu”.

Milli Qəhrəman Hökumə Əliyevanın atası Cəlil Əliyev hadisəni törədənlərin tezliklə məsuliyyətə cəlb olunmasını istəyib: ”Aidiyyəti qurumlardan xahiş edirəm, hadisəni törədənlər tezliklə məsuliyyətə cəlb edilsin və layiqli cəzaları nı alsınlar”.

“Qismət elə gətirdi ki, cənab Prezident İlham Əliyev özü ailəmizə Kəlbəcərdə evin açarlarını təqdim etdi. Hazırda özüm Samuxda yaşayıram, oğlum isə ailəsi ilə birlikdə Kəlbəcərdə həmin evdə. Oğlum Kəlbəcərdə DOST mərkəzində çalışır” - deyə C.Əliyev bildirib.

Milli Qəhrəman Hökumə Əliyevanın həyat yoldaşı Etibar Əliyev qeyd edib ki, onlarla təkcə Azərbaycan xalqı deyil, bütün dünya azərbaycanlıları fəxr edir”.

Onun sözlərinə görə, Milli Qəhrəmanın ailəsi inanır ki, qəzaya səbəb olan cinayətkarlar ifşa olunacaq və məsuliyyətə cəlb olunacaqlar.

Milli Qəhrəman İqor Kşnyakinin qızı Anastasiya Kşnyakina deyib ki, axşamlar evdə birgə çay süfrəsi arxasında oturardılar və atası uçuşlarından danışardı: ”Bu, bizim ailənin adəti idi. Uçuş olmazdan bir gün əvvəl o Qroznıya uçacağını bilirdi və buna görə də havaya baxıb dedi ki, uçuşu bitirən kimi evə qayıdacaq. Çünki o, Yeni İli bizimlə qeyd etmək istəyirdi. Bu, onun ən sevimli bayramı idi. Ancaq o, gəlmədi”.

***Anar Kəlbiyev***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

49_27 IYUl-QARA.qxd 12/25/2025 9:27 PM Page 13



# Dövlət və xalq birliyi:
## Heydər Əliyevin siyasi irsində həmrəylik

***"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" deməklə fəxarət hissi keçirən Heydər Əliyev öz vətənini və xalqını böyük məhəbbətlə sevən bir lider, öz dövləti və milləti üçün əlindən gələni əsirgəməyən şəxs olaraq milli qüruru bütün xalqın ortaq qüruruna və dövlət ideologiyasına çevirmişdir. Bu ifadə onun siyasi fəlsəfəsində təsadüfi cümlə deyil, müstəqil Azərbaycanın uzunmüddətli inkişafı üçün qurulan ideoloji platformanın başlanğıc nöqtəsidir.***

"Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir. Biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik" deməklə, Ulu Öndər azərbaycançılığı sadəcə etnik mənsubiyyətlə məhdudlaşdırmamış, bunu vətəndaş kimliyi ilə birləşdirərək dövlət quruculuğunun əsas dayağına çevrilmiş milli ideya formalaşdırmışdır. Milli dövlətçilik mübarizəsində həmişə xalqının yanında olmuş və misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini və rəğbətini qazanmışdır. Heydər Əliyev şəxsi həyat əqidəsini isə belə ifadə etmişdir, "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub".

Ümummilli lider Heydər Əliyev 1982-ci ildən sonra SSRİ-nin ali hakimiyyət strukturlarında, xüsusilə Kremlin siyasi rəhbərliyində fəaliyyət göstərərkən Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən mühüm addımlar atmışdır. O, respublikamıza qarşı aparılan ayrı-seçkilik siyasətinə etiraz etmiş, ermənilərin ərazi iddialarına prinsipial şəkildə qarşı çıxmış və M.S. Qorbaçovun siyasi kursunu tənqid etmişdir. 1987-ci ilin oktyabrında Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin siyasi xəttinə etiraz olaraq tutduğu vəzifələrdən istefa vermişdir. 1990-cı il yanvarın 19-20-də Bakıda baş verən sovet qoşunlarının törətdiyi qanlı faciə ilə bağlı O, Moskvadakı Azərbaycan nümayəndəliyində bəyanatla çıxış edərək cinayətkarların cəzalandırılmasını tələb etmişdir. Dağlıq Qarabağdakı kəskin münaqişə ilə bağlı SSRİ rəhbərliyinin siyasətinə etiraz olaraq 1991-ci ilin iyulunda Kommunist Partiyasını tərk etmişdir.

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana səfər etmiş və həmin il həm Azərbaycan SSR, həm də Naxçıvan MSSR xalq deputatı seçilmişdir və mövcud tarixi-siyasi şəraitin tələblərinə uyğun şəkildə siyasi fəaliyyətini davam etdirmişdir. Bu fəaliyyət nəticə etibarilə Azərbaycanın dövlət müstəqilliyinin bərpası üçün real siyasi və institusional zəminin formalaşdırılmasında mühüm rol oynamışdır. 1991-ci il sentyabrın 3-də O, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilmiş, qanunvericiliyə əsasən Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini vəzifəsini də icra etmişdir. Bu vəzifədə 1993-cü ilə kimi çalışmışdır. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edildi.

Naxçıvan şəhərində keçirilmiş təsis konfransında Heydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının sədri seçilib. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, müstəqillik üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi bir daha göstərdi ki, Azərbaycanı yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Buna görə də Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb və ölkənin o dövrkü rəhbərliyi onu



Bakıya dəvət etməyə məcbur olub. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. Ümummilli lider xalqın təkidli tələbinə cavab verərək hakimiyyət sükanına qayıtmış, ölkədə ictimai-siyasi sabitliyi və qanunçuluğu bərpa etmişdir. Həmçinin Azərbaycan Prezidenti seçilən Heydər Əliyev çox qısa bir müddətdə ümummilli maraqlara əsaslanan fəaliyyəti ilə ölkədə milli həmrəyliyi, dövlətçiliyin möhkəmlənməsini və inkişafı təmin etdi. Bu seçkilər müstəqil Azərbaycanda keçirilmiş ilk demokratik prezident seçkiləri kimi tarixə düşdü. Respublikamızda iqtisadiyyatın inkişafına imkan verməyən amillərdən biri də Dağlıq Qarabağ müharibəsi idi. 30 ildən çox davam edən bu müharibə səbəbi ilə iqtisadiyyatımız çox böyük bir zərər gördü. Ulu Öndər Heydər Əliyev bunu dərk edərək diplomatik kanallardan istifadə etdi və nəticədə 1994-cü il tarixində Qırğızıstanın paytaxtı olan Bişkekdə 2 dövlət - Azərbaycan Respublikası və Ermənistan arasında atəşkəs sazişi imzalandı. Bu saziş ilə müharibə müvəqqəti olaraq dayandırıldı.

Az müddətdə nizami ordu formalaşdırıldı, Qarabağ müharibəsində atəşkəsə nail olundu və münaqişənin dinc yolla həlli istiqamətində danışıqlar başlandı. Qanunsuz silahlı birləşmələrin dövlət çevrilişi cəhdlərinə son qoyuldu, ilk parlament seçkiləri keçirildi, referendum vasitəsilə Konstitusiya qəbul edildi və müasir idarəetmə sistemi yaradıldı. Böyük strateqin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirdi.

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin və qəti siyasi iradəsinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına güclü təkan vermiş, eyni zamanda hüquqi islahatların yeni mərhələdə həyata keçirilməsi üçün geniş imkanlar yaratmışdır. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında dəyəri 7,4 mlrd. dollar olan müqavilə imzalandı. Müqavilənin imzalanma mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı zamanı belə buyurmuşdur: "Bu gün burada görülən iş müstəqil Azərbaycan Respublikasında həyata keçirdiyimiz tədbirlərin davamıdır. Müstəqil Azərbaycan Respublikası həyatının bütün sahələrində demokratiyanın inkişaf etdirilməsinə çalışır. Biz dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında, həm də iqtisadi sahədə demokratiyanın inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstəririk. Biz bu prinsiplərə söykənərək respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha sıx əlaqələndirməyə və müştərək işlər görməyə çalışırıq. Biz bunu Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf etdirilməsi üçün ən səmərəli yol hesab edirik".

1999-cu ilin noyabrında İstanbulda keçirilən ATƏT Zirvə toplantısında XXI əsrin ən böyük enerji layihəsi olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin qısa müddətdə həyata keçirilməsini nəzərdə tutan İstanbul Bəyannaməsi imzalandı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində "İqtisadi inkişafın Azərbaycan modeli" yaradıldı və böyük nailiyyətlərlə tarixə yazılmış oldu. 1999-cu ildə Prezident Heydər Əliyev tərəfindən imzalanmış fərmanla Dövlət Neft Fondu yaradıldı.

Azərbaycançılıq ideologiyası dövlət-vətəndaş münasibətlərinin modern konsepsiyasını, milli maraqların beynəlxalq müstəvidə qorunmasını və ölkənin siyasi, iqtisadi və mədəni inkişafının strateji əsaslarını ehtiva edən nəzəri-praktik platforma kimi çıxış etmişdir. Bu mənada, Heydər Əliyevin ideoloji xətti həm daxili sabitliyin təmin olunmasında, həm sosial-siyasi institutların formalaşmasında, həm də dövlət varlığının strateji möhkəmləndirilməsində fundamental rol oynamışdır.

Milli ideologiyanın sistemli şəkildə hazırlanması və dövlət idarəçiliyində tətbiq olunması ümummilli lider Heydər Əliyevin siyasi-strateji fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi özülünü müəyyənləşdirərək azərbaycançılıq ideologiyasının konseptual çərçivəsini formalaşdırmışdır. Bu ideologiya Azərbaycan xalqının milli kimliyini möhkəmləndirməklə yanaşı, dünya azərbaycanlılarının vahid ideya və dəyər sistemi ətrafında birləşməsinə xidmət edən mühüm məfkurə modelinə çevrilmişdir.

Məhz bu düşüncədən qaynaqlanaraq 1991-ci ilin 16 dekabrında onun təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası qoyuldu. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olan Heydər Əliyev dünya azərbaycanlılarını bir araya gətirməyin zəruriliyini nəzərə alaraq 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bununla da ölkəmizin milli bayramları sırasına daha bir əlamətdar gün daxil oldu.

2001-ci il 9-10 noyabr tarixlərində Prezident Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultay soydaşlarımız arasında həmrəyliyin daha da güclənməsinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında diaspor təşkilatlarının rolunun artmasına böyük təkan verdi. Həmçinin diasporun sistemli şəkildə fəaliyyət göstərməsi üçün hüquqi baza yaradıldı və Diasporla İş üzrə Dövlət Komitəsi təsis edildi. Komitənin yaradılması diaspor fəaliyyətinin bir mərkəzdən koordinasiyasını mümkün etdi.

Ümummilli Liderimiz 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır".

Azərbaycançılıq yalnız siyasi və ya mədəni məfhum deyil, həm də bütün dünya azərbaycanlılarını ortaq tarix, dil, ənənə və mənəvi dəyərlər ətrafında birləşdirən milli kimlik konsepsiyasıdır. Son illər bu ideologiya müstəqil Azərbaycanın möhkəmlənməsi, inkişafı və beynəlxalq nüfuzunun artmasında aparıcı ideyalardan biri kimi çıxış edir. Azərbaycançılıq həm ölkə daxilində sabitlik və birlik yaradan, həm də xaricdə yaşayan soydaşlarımızı ana Vətənlə daha sıx əlaqələndirən güclü mənəvi körpü rolunu oynayır.

Cənab Prezident İlham Əliyevin məqsədyönlü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan Respublikası yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Prezident İlham Əliyev öz çıxış və fəaliyyətində azərbaycançılığı dövlət ideologiyası kimi ardıcıl şəkildə ön plana çəkir. Onun rəhbərliyi dövründə azərbaycançılıq ideologiyası dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi ilə üzvi surətdə bağlı olmuşdur. Ulu Öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə 10 may 2012-ci il tarixdə keçirilən təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitqində bildirirdi: "Biz bütün sahələrdə bugünkü Azərbaycan reallıqlarında Heydər Əliyevin izini görürük. Güclü və möhkəm təməl, milli dəyərlər üzərində müasir dövlətin qurulması Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biridir. Onun təşəbbüsü ilə dövlətimizin ideoloji əsasları formalaşmışdır. Azərbaycançılıq məfkurəsini cəmiyyətə təqdim edən məhz Heydər Əliyev olmuşdur. Bu gün azərbaycançılıq fəlsəfəsi bizim əsas ideoloji dayaqlarımızdan biridir".

Güclü ordu quruculuğu, milli maraqlara əsaslanan balanslaşdırılmış xarici siyasət və davamlı iqtisadi inkişaf bu ideologiyanın real və praktik təzahürləridir. Xüsusilə Vətən müharibəsində qazanılan tarixi Qələbə azərbaycançılıq ruhunun, milli birliyin və vətənpərvərliyin parlaq nümunəsi kimi tarixə düşmüşdür. Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət azərbaycançılıq ideologiyasının müasir dövrdə daha da güclənməsinə xidmət edir. Bu ideologiya milli dəyərlərlə müasir inkişafı uzlaşdıran, Azərbaycan xalqını gələcəyə inamla aparan mühüm bir yol xəritəsidir.



*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, sektor müdiri.*
***S.e.f.d. Anar Şükürov***

49_27 IYUl-QARA.qxd 12/25/2025 9:27 PM Page 14



# Azərbaycanda bu əməliyyatlar üzrə hərraclar keçiriləcək

***2026-cı ildə Mərkəzi Bank pul siyasətinin hədəflərinə nail olmaq üçün sərəncamında olan bütün alətlərdən çevik və adekvat istifadə edəcək. Pul siyasəti qərarlarının real iqtisadiyyata ötürücülüyünün artırılması məqsədilə köməkçi pul siyasəti lövbərinin (AZIR) təsirlərinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdiriləcək.***



"Unikal" xəbər verir ki, bu barədə Mərkəzi Bankın 2026-cı il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatında deyilir. Bildirilib ki, 2026-cı ildə də qiymət sabitliyinin başlıca lövbəri olan manatın ABŞ dollarına nəzərən ikitərəfli məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən ediləcək: "Mərkəzi Bankda Dövlət Neft Fondunun (ARDNF) valyuta satışları üzrə hərracların keçirilməsi davam etdiriləcək. Mərkəzi Bank və fiskal orqanlar (ARDNF və Maliyyə Nazirliyi) arasında effektiv koordinasiya valyuta bazarının tarazlı fəaliyyətinə dəstək verəcək.

2026-cı ildə də monetar şəraitin formalaşmasında faiz dəhlizi mühüm rol oynamaqda davam edəcək və pul bazarında qısamüddətli faizlər pul siyasətinin yardımçı əməliyyat hədəfi olaraq istifadə ediləcək. Banklararası pul bazarındakı faizlərin Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət etməsi üçün Mərkəzi Bank arsenalındakı bütün alətlərdən adekvat və çevik şəkildə istifadə edəcək. Təminatsız bazarda əqdlər üzrə orta çəkili faiz göstəricisi olan AZIR indeksinin kəskin dəyişkənliyinə yol verilməyəcək və onun Mərkəzi Bankın uçot dərəcəsinə yaxın səviyyədə hərəkətinə xüsusi diqqət yetiriləcək. Bu məqsədlə daimi imkan alətləri və açıq bazar əməliyyatları fəal şəkildə tətbiq ediləcək.

Daimi imkan alətləri növbəti ildə də banklararası pul bazarında faizlərin faiz dəhlizi daxilində formalaşmasını təmin edəcəkdir. Daimi imkan aləti olaraq gecəlik depozit və gecəlik əks-repo əməliyyatlarından istifadə ediləcək. Bu alətlər üzrə faiz dərəcələri müvafiq olaraq faiz dəhlizinin aşağı və yuxarı hədlərinə bərabər olacaq".

Qeyd edilib ki, açıq bazar əməliyyatları olaraq sterilizasiya məqsədli müxtəlif müddətli not, habelə 7 günlük əməliyyatlar üzrə hərraclar keçiriləcək: "Bu alətlər üzrə faiz dərəcələri Mərkəzi Bankın İdarə Heyətinin müəyyən etdiyi qaydada formalaşacaq. Əvvəlki illərdə olduğu kimi növbəti ildə də alətlərin tətbiq olunma qaydaları maliyyə bazarı iştirakçılarına öncədən açıqlanacaq. Açıq bazar əməliyyatlarının istiqaməti (sterilizasiya və ya emissiya) bank sisteminin likvidlik mövqeyindən asılı olaraq müəyyənləşdiriləcək. Açıq bazar əməliyyatlarının kəmiyyət parametrlərinə və müddətlərinə dair qərarlar bank sisteminin likvidlik mövqeyindən (izafi likvidlik və likvidlik çatışmazlığı) asılı olaraq operativ şəkildə veriləcəkdir. Bu qərarlar əməliyyatlar keçirilməzdən öncə müvafiq bazar iştirakçılarına kommunikasiya ediləcək.

Növbəti ildə də bank sisteminin likvidlik mövqeyinin müntəzəm monitorinqi və proqnozlaşdırılması davam etdiriləcək. Likvidliyin monitorinqi və proqnozlaşdırılması sahəsində fiskal orqanlarla informasiya mübadiləsinin daha da gücləndirilməsi nəzərdə tutulur.

Pul siyasəti alətlərinin təkmilləşdirilməsi və pul bazarının inkişafı istiqamətində tədbirlər 2026-cı ildə də davam etdiriləcək. Bu zaman beynəlxalq maliyyə təşkilatları və bank ictimaiyyəti ilə məsləhətləşmələr davam etdiriləcək. Qeyd olunan istiqamətdə islahatlar ölkədə maliyyə alətlərinin diversifikasiyasını, bazar likvidliyinin artmasını və ölkə iqtisadiyyatının dayanıqlı maliyyələşməsini daha da gücləndirəcək".

# Dövlət Komitəsində BMT-nin rezident-əlaqələndiricisi ilə görüş keçirilib

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyevanı ölkəmizdə səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdə BMT və onun ixtisaslaşmış qurumları ilə uzunmüddətli əməkdaşlığın ölkəmizin üzləşdiyi qaçqınlıq və məcburi köçkünlük probleminin yaratdığı çətinliklərin aradan qaldırılmasında əhəmiyyətli rol oynadığı qeyd edilib.

Həmçinin bildirilib ki, qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətdə də daim prioritet istiqamətlərindən olub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da ictimai-siyasi fəaliyyətində də bu kateqoriyadan olan xüsusi insanlara diqqət və qayğı göstərilməsi mühüm yer tutub.

Vladanka Andreyevanın ölkəmizdə öz missiyasını dövlətimiz və xalqımız üçün çox əlamətdar bir dövrdə uğurla yerinə yetirdiyi vurğulanıb. Belə ki, torpaqlarımızın işğaldan azad edilməsi nəticəsində məcburi köçkünlərin doğma yurd yerlərinə geri dönüşü başlayıb və Böyük Qayıdışa dair I Dövlət Proqramı icra edilir. Azərbaycan hökumətinin qayıdış prosesinin könüllü, təhlükəsiz və ləyaqətli şəkildə aparılmasını təmin etmək üçün gördüyü tədbirlərin, Qarabağda və Şərqi Zəngəzurda gedən genişmiqyaslı bərpa-quruculuq işlərin beynəlxalq miqyasda maraqla qarşılandığı vurğulanıb. Eyni zamanda, həmin ərazilərdə mina və partlamamış hərbi sursatların yaratdığı təhlükənin hələ də qaldığı, beynəlxalq təşkilatların bu təhlükənin aradan qaldırılması sahəsində ölkəmizlə davamlı əməkdaşlığının vacibliyinə toxunulub.



Vladanka Andreyevanın BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi kimi fəaliyyəti dövründə Dövlət Komitəsi ilə əməkdaşlığı yüksək qiymətləndirilib. Onun rəhbərliyi dövründə BMT təsisatları ilə tərəfdaşlığın daha da dərinləşdiyi, qaçqınların və məcburi köçkünlərlə bağlı humanitar və inkişaf yönümlü layihələrin icrası sahəsində mühüm nəticələrin əldə edildiyi bildirilib.

Komitə sədri Rövşən Rzayev Vladanka Andreyevaya Azərbaycandakı fəaliyyəti dövründə göstərdiyi səmərəli əməkdaşlığa və verdiyi töhfələrə görə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Öz növbəsində, Vladanka Andreyeva səmimi qəbula və ölkəmizdəki fəaliyyətinə verilən dəyərə görə minnətdarlığını bildirib, Azərbaycanda qazandığı təcrübənin gələcək fəaliyyəti üçün önəmli olduğunu diqqətə çatdırıb.

Görüşdə qarşılıqla maraq doğuran bir sıra məsələlərlə də bağlı fikir mübadiləsi aparılıb.

## Bağışlanan təhsil tələbə kreditlərinin həcmi açıqlandı

Fond tərəfindən 761min manata yaxın kredit vəsaiti bağışlanıb.

"Unikal" xəbər verir ki, bunu bu gün Bakıda keçirilən Təhsil Tələbə Krediti Fondunun 4 illik fəaliyyətinə dair hesabat tədbirində fondun idarə heyətinin sədri Bəhruz Əzimov təqdimatı zamanı bildirib.

Onun sözlərinə görə, geri ödəniş mərhələsində kreditlərin verilmə qaydasına əsasən normativ təhsil müddətində akademik göstəriciləri yüksək olan məzunların kredit vəsaitlərinin müəyyən hissəsi dövlət tərəfindən bağışlanır: "Ümumi orta müvəffəqiyyət göstəriciləri yüksək olan məzunlara 681 Sosial TTK müqaviləsi üzrə 50 faiz və 1 679 Standart TTK müqaviləsi üzrə 25 faiz güzəştlər tətbiq olunub, ümumilikdə 761min manata yaxın kredit vəsaiti bağışlanıb".

## Yenilənmiş 50 manatlıq tədavülə buraxılır

***Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Tahir oğlu Kazımovun imzasının əks olunduğu yenilənmiş 50 manatlıq kağız pul nişanları 25 dekabr 2025-ci il tarixindən etibarən tədavülə buraxılır.***

"Unikal" xəbər verir ki, imza pul nişanının ön tərəfindən sol yuxarı küncdə təsvir edilib. Kağız pul nişanının üzərində həmçinin "2025" istehsal ili əks olunub.

Yenilənmiş 50 manatlıq əsginasın digər dizayn elementləri və texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı kağız pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb.

Qeyd edək ki, yenilənmiş 50 manatlıq kağız pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaqdır.

## 2025-ci ilin 9 ayında Ağdaşda tikintinin əsas göstəriciləri belə olub

***2025-ci ilin yanvar-sentyabr aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 71 milyon 609,8 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə çox vəsait yönəldilmişdir.***

Ümumi sərmayənin 59 milyon 882,2 min manatı və ya 83,6 faizi dövlət, 11 milyon 727,6 min manatı və ya 16,4 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 63 milyon 433,6 min manatı və ya 88,6 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 8 milyon 176,2 min manatı və ya 11,4 faizi isə maşın, avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. 2025-ci ilin yanvar-sentyabr aylarında tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artmışdır. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 8,9 faiz azalmışdır.

*Ağdaş Rayon Statistika İdarəsinin rəis müavini Azər İsgəndərli*

49_27 IYUl-QARA.qxd 12/25/2025 9:27 PM Page 15



# "Hamının bir arzusu var: o ölsün" - Zelenski



***Ukrayna Prezidenti Volodimir Zelenski Milad təbriki edib.***

"Unikal" xəbər verir ki, Ukrayna liderinin videomüraciəti siyasətçinin "Telegram" kanalında yayımlanıb.

O, qəribə bir açıqlama verərək, bütün ukraynalıların bu barədə düşündüyünü qeyd edib. Zelenski kimi nəzərdə tutduğunu dəqiqləşdirmədən deyib: "Bu gün hamımızın bir arzusu var. Və hamı üçün bir arzumuz var: o ölsün".

Çıxışında o, həmçinin rusları respublika ərazisinə hava hücumlarına görə "allahsız" adlandırıb.

***Ağarza Elçinoğlu***

# Ukrayna Dağıstanda humanitar karvanı atəşə tutdu - Vəzifəli şəxs öldü



***Ukrayna Silahlı Qüvvələri Dağıstandanda humanitar karvanı atəşə tutub.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, hadisə nəticəsində sərhəd bölgəsində üç nəfər həlak olub. Onların arasında Dağıstanın Şamil rayonu rəhbərinin müavini Maqomednabi Hacıyev də var.

Qeyd olunur ki, insidentdə daha bir nəfər yaralanıb, o xəstəxanaya yerləşdirilib.

***Gülayə Mecid***

# Rusiya təyyarəsi təcili eniş etdi



***Sankt-Peterburqdan Yakutska uçan "Yakutia Airlines" təyyarəsi texniki nasazlıq səbəbindən Moskvanın Vnukovo hava limanına eniş edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat dərc edib.

"İlkin məlumatlara görə, 24 dekabrda "Yakutia Airlines" şirkətinin Sankt-Peterburqdan Yakutska uçan Yak-488 reysi ilə uçan təyyarə texniki nasazlıq səbəbindən Vnukovo alternativ aerodromuna təhlükəsiz eniş edib", - deyə açıqlamada bildirilir.

Hazırda mütəxəssislər təyyarənin texniki vəziyyətini qiymətləndirirlər.

# Tacikistan-Əfqanıstan sərhədində atışma olub - Ölənlər var

***Tacikistan-Əfqanıstan sərhədində silahlı toqquşma baş verib.***

"Unikal" xəbər verir ki, bu barədə Tacikistanın Dövlət Milli Təhlükəsizlik Komitəsi məlumat yayıb.

Qeyd olunur ki, insidentdə iki zabit həlak olub.

***Gülayə***

# Bakı-İrəvan dialoqu ilə bağlı rəsmi Moskvadan açıqlama

***Moskva Bakı ilə İrəvan arasında dialoqda müsbət dinamikanı qeyd edir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib. Onun sözlərinə görə, region daxilində əlaqələrin bərpası və yaxşılaşdırılması davam edir. Zaxarova qeyd edib ki, "Rusiya nəqliyyat əlaqələrinin açılması prosesini, o cümlədən Rusiya taxılının Azərbaycan vasitəsilə Ermənistana davamlı tədarükünü alqışlayır".

O, vurğulayıb ki, bu, "3+3" regional formatının inkişafının aktuallığını təsdiqləyir.

# Türkiyədə Yeni il gecəsi hücuma hazırlaşan İŞİD üzvləri saxlanıldı

***Istanbul Baş Prokurorluğu Yeni il şənlikləri zamanı hücumlara çağırış etdiyi və planlaşdırdığı iddia edilən 137 şübhəliyə qarşı əməliyyat başladıb.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya məlumat yayıb. Onun sözlərinə görə, əməliyyatlar 124 ünvanda aparılıb və 115 şübhəli saxlanılıb.

"İŞİD üzvlərinin Türkiyə vətəndaşlarını hədəf ala biləcək hücumlar üçün çağırışlar və planlar etdiyi aşkarlanıb, sözügedən şəxslər hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatda saxlanılıb", - nazir qeyd edib. Bildirilir ki, ünvanlarda aparılan axtarışlar zamanı tapança, sursat və çoxsaylı təşkilati sənədlər müsadirə edilib. Qalan şübhəlilərin tapılması üçün səylər davam edir.

***Gülayə Mecid***

# "Euronews" AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı məqalə dərc etdi



***"Euronews"un saytında Bakı-Qroznı reysini yerinə yetirən AZAL-a məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəzaya uğramasının ildönümü ilə bağlı məqalə dərc olunub.***

"Unikal" xəbər verir ki, məqalədə Azərbaycanın qəza ilə bağlı mövqeyi, hadisə zamanı sağ qalanların ifadələri və digər məsələlər öz əksini tapıb.

Yazıda qeyd olunur ki, Azərbaycan Prezidenti istintaq nəticələrinə və şahid ifadələrinə əsaslanaraq məsələdə Rusiyanın məsuliyyət daşıdığını təkidlə vurğulayıb və nəticədə Rusiya Prezidenti ölkəsinin faciədəki rolunu etiraf edib.

"Sözügedən hadisədə həlak olan pilotların qəhrəmanlığı daha çox insan tələfatının qarşısını aldı", - yazıda deyilir.

Həmçinin vurğulanıb ki, qəzadan bir gün sonra Azərbaycan rəsmiləri "Euronews"a verdikləri açıqlamada pilotların müraciətinə baxmayaraq, Rusiyanın Azərbaycan təyyarəsinə heç bir hava limanına eniş icazəsi vermədiyini və təyyarənin Xəzər dənizi üzərindən Qazaxıstan istiqamətində uçmağa məcbur olduğunu deyiblər.

"Hadisədən təxminən bir il sonra, Rusiya Prezidenti ölkəsinin Hava Hücumundan Müdafiə sistemlərinin Qroznı üzərində Ukrayna dronlarını hədəfə aldığını və nəticədə Azərbaycan təyyarəsinin vurulmasında məsuliyyət daşıdıqlarını etiraf edib, kompensasiya təklif edilib", - yazıda qeyd olunub.

# MOSSAD Livanda gizli əməliyyat keçirdi - Kritik şəxs qaçırıldı

***Israilin kəşfiyyat xidməti MOSSAD Livanda gizli əməliyyat keçirib.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, əməliyyat zamanı təqaüddə olan ümumi təhlükəsizlik zabiti Ahmad Şükr adlı şəxs qaçırılıb.

Livan KİV yazır ki, Şükrün qaçırılması 1986-cı ildə itkin düşmüş İsrail Hərbi Hava Qüvvələrinin pilotu Ron Arad işi ilə əlaqəli ola bilər. İddiaya görə, Ron Arad 1986-cı ildə Livanı bombaladığı zaman təyyarəsinin vurulmasından sonra "Əməl" Hərəkatı tərəfindən sağ ələ keçirilib. İsrailin Aradın taleyi ilə bağlı axtarışları həmin ildən etibarən davam etdirdiyi qeyd olunur.

Məlumata əsasən, MOSSAD agentləri əməliyyatdan iki gün əvvəl Beyrut Beynəlxalq Hava Limanı vasitəsilə Livana daxil olub. Agentlərin İsveç pasportları daşıdığı və əməliyyatdan qısa müddət sonra ölkəni tərk etdikləri iddia edilir.

Livanlı mənbələr bildiriblər ki, Ahmad Şükr Bəkaa vadisində yerləşən Nəbi Şit kəndində qaçırılıb. Əlavə məlumat verilməyib.

***Gülayə Mecid***

49_27 IYUI-QARA.qxd 12/25/2025 9:28 PM Page 16



# Azərbaycan boksçuları bu il beynəlxalq yarışlarda 231 medal qazanıblar



***Azərbaycan boksçuları bu il müxtəlif yaş qrupları üzrə beynəlxalq yarışlarda ümumilikdə 231 medal qazanıblar.***

Boks Federasiyasından "Unikal"a verilən məlumata görə, milli komandalar bu mükafatları qatıldıqları 47 turnirdə əldə edib. Onlardan 69-u qızıl, 60-ı gümüş və 102-si bürüncdür. Nəticədə boks yığmaları ötən illə müqayisədə 44 faiz irəliləyişə nail olublar.

Boksçular 231 mükafatdan 5-ni dünya, 55-ni Avropa çempionatlarında (hər ikisi World Boxing və IBA) əldə ediblər. Milli komandalar Gimnaziada İdman Oyunlarında 21 (9-8-4), Dünya Kubokunda 3 (0-0-3), III MDB Oyunlarında 24 (6-5-13) və VI İslam Həmrəyliyi Oyunlarında 6 (1-3-2) dəfə fəxri kürsüyə qalxıblar.

Yığmanın heyətində Bilalhəbaşi Nəzərov (50 kiloqram) U-19 Avropa çempionatında qızıl medal qazanmaqla Azərbaycan boks tarixinə gənclər arasında qitə birinciliyinin ikiqat qalibi kimi düşüb. Xumar Cəfərli (75 kiloqram) də məktəblilərin Avropa çempionatında birinci olmaqla, ilki reallaşdırıb. O, bu yaş qrupunda qızıl medala sahib olan azərbaycanlı qız boksçu kimi adını tarixə yazdırıb. Abbasəli Məmmədli (48 kiloqram), Nurlan Müseyibli (66 kiloqram), Ziraddin Rüstəmli (70 kiloqram), Mehran Rəsulov (80 kiloqram) məktəblilərin, Əminə Tağı (50 kiloqram), Gülər Hüseynova (48 kiloqram) və Qardaş Rəhimov (46 kq) yeniyetmələrin Avropa çempionatlarında bütün rəqiblərini məğlub edərək Azərbaycan Himnini səsləndiriblər. 19 yaşlı Sübhan Mamedov (50 kiloqram) U-23-lər arasında Avropa, böyüklər arasında dünya çempionu tituluna yiyələnib. Komandalar dünya və Avropa çempionatlarında 2024-cü illə müqayisədə 72 faiz yüksək nəticə göstəriblər.

Müxtəlif yaş qrupları üzrə milli komandalar 47 yarışda 477 boksçu ilə təmsil olunub. Onlardan 48,4 faizi çıxışını medalla başa vurub.

Qeyd edək ki, 1 il öncə Azərbaycan boksçuları 35 beynəlxalq yarışda 135 (44-48-68) medal qazanmışdı.

# ÇL qalibi Kvaratsxeliya Gürcüstanda ən yaxşı idmançıların siyahısına düşə bilmədi

***Gürcüstan Milli Olimpiya Komitəsi 2025-ci ilin ən yaxşı idmançılarının adlarını açıqlayıb.***

"Unikal" yerli mətbuata istinadla xəbər verir ki, milli komandanın və Fransanın PSJ klubunun ulduz futbolçusu Xviça Kvaratsxeliya qaliblər sırasına düşə bilməyib. Ötən il Paris təmsilçisi ilə UEFA Çempionlar Liqasının qalibi olan yarımmüdafiəçinin mükafatçılar arasında göstərilməməsi birmənalı qarşılanmayıb.



Gürcüstanda ilin kişi və qadın idmançıları adına, müvafiq olaraq, qılıncoynatmanın sablya növü üzrə yığmanın üzvü Sandro Bazadze və qadın cüdoçu Etar Liparteliani layiq görülüblər. Bazadze karyerası ərzində ilk dəfə dünya çempionu olub. Liparteliani isə Gürcüstana dünya çempionatında qızıl medal qazandıran ilk qadın cüdoçu kimi tarixə düşüb.

Komanda idman növlərində ölkənin ən yaxşısı isə basketbol üzrə Gürcüstan millisinin kapitanı Tornike Şengeliya seçilib. Yığma bu il keçirilən Avropa çempionatında 1/4 finala yüksəlməklə tarixi uğura imza atıb. Gürcüstan seçməsi turnirdə İspaniya və Fransa kimi güclü komandaları məğlub edib.

# Futbolçu oyun zamanı vəfat etdi

***Brundi 2-ci liqasında oyun zamanı faciəvi hadisə yaşanıb.***

QOL.az xəbər verir ki, "Qepye Dyu Lak"ın futbolçusu Ayme Qerik dünyasını dəyişib. Bu barədə "Sport News Africa" məlumat yayıb.

Bildirilib ki, hadisəyə səbəb futbolçunun ağzındakı sikkə olub. O, oyun zamanı sikkəni ağzında saxlayıb və daha sonra udub. Qerik qəfildən meydançada yıxılıb. Həkimlər müdaxilə etsələr də, oyunçu xəstəxanaya aparılarkən həyatını itirib. Mətbuatdakı xəbərlərə görə, bu sikkə cadugərlik ritualının bir hissəsidir və indiyədək Brundidə fəal şəkildə istifadə olunan təcrübədir. Daha əvvəl Ayme cadugərliklə ittiham olunsa da, o, bu ittihamları rədd etmişdi.



# "Mançester Siti"nin sabiq futbolçusu karyerasını bitirir



***Ekvador millisinin və İngiltərənin "Mançester Siti" klubunun sabiq futbolçusu Felipe Kaysedo karyerasını bitirməyə hazırlaşır.***

"Unikal" xəbər verir ki, hazırda ölkəsinin "Barselona" klubunda çıxış edən 37 yaşlı hücumçu bu yaxınlarda silahlı hücum nəticəsində dünyasını dəyişən komanda yoldaşı Mario Alberto Pineydanın ölümündən təsirləndiyi üçün bu qərarı qəbul edib.

Felipe Kaysedo karyerası ərzində "Mançester Siti"dən başqa, "İnter" və "Latsio" kimi tanınmış komandalarda da çıxış edib.

# Afrika Millətlər Kuboku: Favoritlər turnirə qələbə ilə başladılar

***Mərakeşin ev sahibliyi etdiyi futbol üzrə Afrika Millətlər Kubokunda daha 4 oyun keçirilib.***

"Unikal" xəbər verir ki, E qrupunda Əlcəzair millisi 3:0, Burkino Faso yığması Ekvatorial Qvineyaya 2:1 hesabı ilə qalib gəlib.

F qrupunda da favoritlər turnirə 3 xalla start veriblər. Kot d'İvuar seçməsi Mozambiki, Kamerun isə Qabonu bir cavabsız qolla məğlub edib.

Qeyd edək ki, Afrika Millətlər Kubokuna gələn il yanvarın 18-də yekun vurulacaq.

# Renat Dadaşov "Qarabağ"a təklif olundu



***Polşanın "Motor" klubunda çıxış edən millimizin üzvü Renat Dadaşovun karyerasını Azərbaycanda davam etdirə bilər.***

Qış fasiləsində "Motor"dan ayrılacağı, demək olar ki, dəqiqləşən hücumçu hazırda Premyer Liqa klublarımızla danışıq aparır.

Dadaşovun meneceri onun xidmətini ilk olaraq "Qarabağ"a təklif edib.

Lakin onun "Zirə"yə keçmək ehtimalı da böyükdür. Çünki baş məşqçi Rəşad Sadıqovun 26 yaşlı forvardı sərəncamında görmək istədiyi vurğulanıb.

Əgər "Qarabağ" Dadaşovun xidmətində maraqlı olmasa, o zaman "Zirə" futbolçunun meneceri ilə danışıqları intensivləşdirəcək.

Qeyd edək ki, Renat Dadaşovun "Motor"la müqavilə müddəti 2026-cı ilin yayına qədərdir. Lakin Lyublin klubu həmyerlimizi transferə çıxarıb.

# Azərbaycan klubu iki əcnəbi voleybolçu ilə vidalaşıb

***Qadın voleybolçulardan ibarət "Azərreyl" komandası iki oyunçu ilə yollarını ayırıb.***

AZƏRTAC-ın əldə etdiyi məlumata görə, Bakı təmsilçisi braziliyalı Qratsiele Korrea və serbiyalı Ana Krul ilə vidalaşıb.

Hər iki oyunçu mövsümün əvvəlində "dəmiryolçular"a keçmişdi.

# "Atletiko" onu icarəyə verdi

***"Atletiko" futbolçusu Xavi Qalanı icarəyə göndərib.***

QOL.az xəbər verir ki, 31 yaşlı müdafiəçi "Osasuna"ya keçib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

İspaniyalı oyunçu 30 iyun 2026-cı ilədək "Osasuna"nın formasını geyinəcək. Razılaşmaya əsasən, "Osasuna" bu keçid üçün "Atletiko"ya 500 min avro ödəyəcək.

Qeyd edək ki, Qalan cari mövsümdə "Atletiko"nun heyətində 7 oyuna çıxıb və 1 məhsuldar ötürmə verib. O, karyerası ərzində "Real Sosyedad", "Selta", "Ueska" və "Kordoba" klublarında da forma geyinib.